## Ukrayna Ali Radası hərbi vəziyyətin müddətini daha 30 gün uzadıb



**Ukrayna Ali Radası Rusiya ilə hərbi əməliyyatların davam etməsi səbəbindən hərbi vəziyyətin müddətini daha 30 gün uzadıb.**

"Report" bu barədə UNİAN-a istinadən xəbər verir.

Beləliklə, martın 26-da başa çatan hərbi vəziyyət aprelin 25-dək uzadılıb.

Ukraynada 30 günlük hərbi vəziyyət fevralın 24-də Rusiyanın hərbi müdaxiləsindən sonra tətbiq edilib.

## Rusiya Avropa Şurasından çıxdı




**Rusiyanın Avropa Şurasından çıxması ilə bağlı qərar qəbul edilib.**

Rusiyanın xarici işlər naziri Sergey Lavrov təşkilatın baş katibinə müvafiq məktubu təqdim edib.

Bunu Dövlət Dumasının vitse-spikeri Pyotr Tolstoy deyib.

Onun sözlərinə görə, Rusiya öz istəyi ilə Avropa Şurasından çıxır. Bu, balanslaşdırılmış və düşünülmüş qərardır.




## Azərbaycanın mövqeyi aydın və ardıcıldır

### Xarici İşlər Nazirliyi Ararat Mirzoyana cavab verib

**Azərbaycan və Ermənistan arasında münasibətlərin normallaşması ilə bağlı Azərbaycanın mövqeyi aydın və ardıcıldır.**

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən "Şərq"ə verilən xəbərə görə, bu, Azərbaycanın iki dövlət arasında münasibətlərin normallaşması ilə əlaqədar təklifləri ilə bağlı Ermənistanın xarici işlər naziri Ararat Mirzoyanın söylədiklərinə dair şərhində əksini tapıb.

"Biz, dəfələrlə bildirdiyimiz mövqeyi yenidən təkrar etməyə lüzum görmürük.

Azərbaycan münaqişə sonrası iki ölkə arasında münasibətlərin normallaşması və bölgədə sülh quruculuğu məsələlərinin vacibliyini nəzərə alaraq, bu xüsusda təklifləri irəli sürüb və bu istiqamətdə irəliləməyə hazırdır.

Əgər Ermənistan da məsələyə ciddi şəkildə yanaşırsa, o zaman konkret təkliflərini təqdim etməli və beləliklə də, substantiv və nəticəyə yönəlik danışıqlara başlamağa hazır olduğunu nümayiş etdirməlidir", - qeyd edilib.

❒ № 48 (5570), 2022-ci il

Qiyməti 40 qəpik

# ŞƏRQ

Günəş Şərqdən doğur!

www.sherg.az 16 mart 2022-ci il (çərşənbə)



## ABŞ-dan zəng gəldi

### Azərbaycan Prezidenti İlham Əliyev Entoni Blinkenlə telefonla danışıb

**Martın 15-də Amerika Birləşmiş Ştatlarının dövlət katibi Entoni Blinken Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə zəng edib.**

Söhbət zamanı Cənubi Qafqaz regionunda postmünaqişə dövrünə aid məsələlər, o cümlədən Ermənistanla Azərbaycan arasında normallaşma prosesi barədə fikir mübadiləsi aparılıb.

Telefon danışığı əsnasında regional təhlükəsizlik məsələləri də müzakirə edilib.

Amerika Birləşmiş Ştatlarının dövlət katibi Entoni Blinken Ukraynaya humanitar yardım göstərdiyinə görə Azərbaycana təşəkkürünü bildirib.

## Ərdoğan Çavuşoğlunu göndərdi

### Türkiyə xarici işlər naziri Rusiyadan sonra Ukraynaya səfər edəcək



**Türkiyənin xarici işlər naziri Mövlud Çavuşoğlu yaxın iki gün ərzində Rusiya və Ukraynaya səfər edəcək. Trend-in məlumatına görə, bu barədə Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğan ölkənin Nazirlər Kabinetinin iclasından sonra çıxışında bildirib.**

"Bu gün mən xarici işlər nazirimizi Rusiyaya göndərirəm. Sabah onun Moskvada danışıqları var, cümə axşamı isə o Ukraynaya gedəcək", - deyə R.T.Ərdoğan qeyd edib.

Türkiyə dövlət başçısı polşalı həmkarı Anjey Dudanın martın 16-da Türkiyəyə səfər edəcəyini də açıqlayıb.

# Savaşın bitəcəyi tarix açıqlandı



## Mayın əvvəllərindən gec olmayaraq sülh razılaşması reallaşa bilər

**Rusiya ilə Ukrayna arasında razılaşma 1-2 həftə ərzində imzalana bilər. Bu barədə Ukrayna prezident ofisinin rəhbərinin məsləhətçisi Aleksey Arestoviç deyib. O bildirib ki, mayın əvvəllərindən gec olmayaraq, sülh razılaşması reallaşa bilər:**

"Ən uzaq tarixi götürürəm". Ukrayna Prezidenti Vladimir Zelenskinin ofisinin direktor müavini İqor Jovka da deyib ki, Rusiya daha konstruktiv mövqe nümayiş etdirir. O bildirib ki, rəsmi Moskvanın mövqeyinin əvvəlkilərlə müqayisədə daha konstruktiv olduğuna inanır: "Ultimatumlar vermək, "qırmızı xətt"lər və ya kapitulyasiya istəmək əvəzinə, indi onların konstruktiv danışıqlara başladığı görünür".

(səh.4)

# Siqaret və içkilərin qiyməti bahalaşacaq

### Zərərli məhsulların istehlakının azaldılması məqsədilə qiymət artımına gedilməsi praktikası mövcuddur



**Azərbaycan ərazisinə gətirilən aksizli malların aksiz dərəcələrinin, ölkəyə idxal edilən spirtli içkilərin və tütün məhsullarının vergi rüsumlarının artırılması həmin məhsulların bahalaşmasına səbəb olacaq.**

Bu barədə Xalid Kərimli açıqlamasında deyib.

"Siqaretlərdə min ədəd üçün aksiz vergisi əvvəlki 43 manatdan 46,5 manata qaldırılıb. Bu da bir qutu siqarətdə 35 qəpik artım deməkdir. Bu isə siqaretlərin markasından asılı olaraq 35,50 qəpik bahalaşmaya gətirib çıxaracaq. Elektron siqaret və qəlyanlara tətbiq edilən aksizlər də həmin məhsulların qiymətini bahalaşdıracaq.

(səh.5)




## "Fox News"un əməkdaşı Ukraynada həlak olub

**"Fox News" telekanalının əməkdaşı Ukraynada həlak olub.**

APA xəbər verir ki, bu barədə "Fox News"un icraçı direktoru Suzanne Skot məlumat yayıb.

Bildirilib ki, telekanalın operatoru Pierre Zakrzevski Qorenka kəndində həlak olub.

Xəbərə görə, martın 14-də kanalın müxbiri və operatorunun olduğu maşın atəşə tutulub. Nəticədə jurnalist Benjamin Hall ağır yaralanıb, operator Pierre Zakrzevski isə həyatını itirib.

## Sumqayıtda mikroavtobus minik avtomobili ilə toqquşub

### 13 nəfər yaralanıb, 3 nəfərin vəziyyətinin ağır olduğu bildirilir



**Sumqayıtda mikroavtobus minik avtomobili ilə toqquşub, yaralılar var.**

APA-nın yerli bürosu xəbər verir ki, hadisə "Stansiya Sumqayıt" yaşayış massivinə gedən avtomobil yolunda qeydə alınıb.

Belə ki, "Hyundai" markalı mikroavtobus "Hyundai Santa Fe" minik avtomobili ilə toqquşub.

Qəza nəticəsində 13 nəfər müxtəlif dərəcəli bədən xəsarətləri alıb. Yaralılar Sumqayıt şəhər Təcili Tibbi Yardım Xəstəxanasına yerləşdiriliblər.

Onlardan 3 nəfərinin vəziyyətinin ağır olduğu bildirilir.

## Daha 142 nəfər koronavirusa yoluxub, 9 nəfər vəfat edib




**Azərbaycan Respublikasında koronavirus (COVID-19) infeksiyasına 142 yeni yoluxma faktı qeydə alınıb, 243 nəfər müalicə olunaraq sağalıb.**

Nazirlər Kabineti yanında Operativ Qərargahdan "Şərq"ə verilən məlumata görə, COVID-19 üçün götürülən analiz nümunələri müsbət çıxmış 9 nəfər vəfat edib. Azərbaycanda indiyədək ümumilikdə 790 962 nəfər koronavirus infeksiyasına yoluxub. Onlardan 779 828 nəfər müalicə olunaraq sağalıb, 9 627 nəfər vəfat edib. Aktiv xəstə sayı isə 1 507 nəfərdir. Ölkədə son sutka ərzində 5 454, hazırkı dövrədək isə 6 640 773 test aparılıb.



## Baş nazir hesabat verdi

"Problemləri birdən-birə həll etmək mümkün deyil"

(səh.3)

## Putin Ukraynanı məğlub edə bilməyəcək

Bundan sonra Rusiya daxilində məğlubiyyətdən doğan sarsıntılar başlayacaq

(səh.5)






# "Biz yaxın gələcəkdə yeni layihələrə start verəcəyik"

## Prezident İlham Əliyev: "Azərbaycan elektrik enerjisinin böyük istehsalçısı və ixracatçısı olacaq"

**"Əgər istəsək, xarici dövlət borcunu bir gün ərzində sıfırlaya bilərik". Bunu Prezident İlham Əliyev martın 15-də Gülüstan sarayında Qaradağ Günəş Elektrik Stansiyasının təməlqoyma mərasimində çıxışı zamanı deyib. Dövlət başçısı qeyd edib ki, Azərbaycan dünya miqyasında o ölkələrdəndir ki, ölkəmizdə xarici dövlət borcu çox aşağı səviyyədədir, cəmi 7,4 milyard dollardır:**

"Xarici bazarlar bizim hüdudlarımızın kənarındadır və Avropadadır. Yenə də deyirəm, böyük tələbat var. Daxili tələbat artmaqdadır. Müstəqillik dövründə Azərbaycan əhalisi 7 milyondan 10 milyona çatıbdır. Yəni, bu, əlbəttə ki, böyük üstünlükdür. Eyni zamanda, sənaye və iqtisadiyyatımız artır. Bu ilin iki ayında ümumi daxili məhsul 6,7 faiz, qeyri-neft sektoru 10,1 faiz, qeyri-neft sənaye istehsalı təxminən 21 faiz artmışdır. Bütün bunlar postpandemiya dövründə əldə edilmiş nailiyyətlərdir və onu göstərir ki, Azərbaycanda aparılan islahatlar, sənayeləşmə siyasəti, biznes mühitinin yaxşılaşdırılması və xarici sərmayənin cəlb edilməsi istiqamətində doğrudan da təqdirəlayiq addımlar atılır. Əlavə etsəm ki, Azərbaycan dünya miqyasında o ölkələrdəndir ki, ölkəmizdə xarici dövlət borcu çox aşağı səviyyədədir, cəmi 7,4 milyard dollardır. Əgər istəsək, biz bu borcu bir gün ərzində sıfırlaya bilərik. Əlbəttə ki, həm beynəlxalq maliyyə qurumları, həm böyük şirkətlər, investorlar Azərbaycana çox böyük maraqla yanaşırlar. Bizim siyasətimiz isə ölkəmizin bundan sonrakı sürətli inkişafını təmin etmək, əlbəttə ki, ilk növbədə, azad edilmiş torpaqları bərpa etmək, - bu, böyük ərazidir, 10 min kvadratkilometrdən çox bir ərazidir - və eyni zamanda, ölkəmizin dayanıqlı inkişafını təmin etməkdir. Bu, aksiomadır ki, elektrik enerjisi olmadan heç bir ölkə inkişaf edə bilməz. Bu, birinci şərtdir, bu, əsas şərtdir. Xoşbəxtlikdən Azərbaycanda zəngin neft və qaz yataqları vardır və bu yataqların istismarı və işlənilməsi uğurla gedir. Müasir infrastruktur vardır - həm nəqliyyat, həm kommunikasiya, həm də elektrik xətləri ixrac bazarları ilə bizi birləşdirir. Güclü siyasi iradə vardır. Dünyanın demək olar ki, əksər ölkələri ilə sıx tərəfdaşlıq əlaqələri vardır. Bir çox dostlarımız var, onlardan biri də Birləşmiş Ərəb Əmirlikləridir. Mən bütün sərmayə maraqlarını, biznes maraqlarını nəzərə alaraq onu da bildirməliyəm ki, əgər iki ölkə arasında yaxın dostluq əlaqələri olmasaydı, yəqin ki, bu layihəni də biz görməzdik. Yəni bütün bu amillərin vəhdəti çox gözəl bir imkan yaradır. Hesab edirəm ki, biz bu imkandan böyük səmərə ilə istifadə edirik və edəcəyik".

**"Biz artıq işin təzahürlərini görürük"**

**Prezident bəyan edib ki, Azərbaycan elektrik enerjisinin böyük istehsalçısı və ixracatçısı olacaq:** "Bütövlükdə Azərbaycanda mövcud olan sabitlik, iqtisadi inkişaf, qonşu ölkələrlə münasibətlərimiz, nəqliyyat, kommunikasiyalar, elektrik xətləri nöqteyi-nəzərdən qonşu ölkələrlə sıx təmaslar unikal bir vəziyyət yaradır ki, Azərbaycan nəinki xam neft, neft məhsulları və təbii qaz, eyni zamanda, elektrik enerjisinin böyük istehsalçısı və ixracatçısı olacaq. Mən buna əminəm, biz artıq bu işin təzahürlərini görürük. Onu da nəzərə almalıyıq ki, qonşu ölkələrdə və Avropa qitəsində elektrik enerjisinə böyük ehtiyac vardır. Biz elektrik enerjisini yalnız ekoloji cəhətdən təmiz mənbələrdən istehsal edirik - təbii qaz, su, günəş və külək. Bir daha demək istəyirəm ki, Azərbaycanda bərpaolunan enerji növlərinin potensialı həddindən artıq böyükdür. Məhz buna görə dünyanın aparıcı enerji şirkətləri indi Azərbaycanla bu sahədə əməkdaşlıq etməyə çox maraqlıdırlar. Əminəm ki, biz yaxın gələcəkdə yeni layihələrin başlanmasına start verəcəyik".

**"Bərpaolunan enerji növlərinin inkişafı bizim üçün prioritet məsələdir"**

**Dövlət başçısı vurğulayıb ki, bərpaolunan enerji növlərinin inkişafı bizim üçün prioritet məsələdir:** "Bildirməliyəm ki, bu ilin əvvəlindən energetika sahəsində çox önəmli addımlar atılıbdır. Yanvar ayında bu sahədə məşhur olan, Səudiyyə Ərəbistanını təmsil edən "ACWA Power" şirkəti ilə 240 meqavat gücündə Külək Elektrik Stansiyasının təməli qoyuldu. Fevral ayında "Azərenerji" tərəfindən inşa edilmiş 385 meqavat gücündə elektrik stansiyasının açılışı oldu və bu gün 230 meqavat gücündə günəş elektrik stansiyasının təməli qoyulur. Yəni hələ 3 ay tamamlanmayıb ki, artıq 855 meqavat gücündə yeni generasiya gücləri yaradılır, artıq 385 meqavat gücündə yaradılıbdır. Əminəm ki, 2023-cü ildə əlavə güclər bizim ümumi sistemimizə daxil ediləcəkdir və bu, işin sadəcə olaraq başlanğıc hissəsidir. Çünki bərpaolunan enerji növlərinin inkişafı bizim üçün prioritet məsələdir. Biz uzun illər bu məsələnin həlli ilə bağlı çalışırıq və bu gün real nəticələr görürük. Bütövlükdə Azərbaycanda mövcud olan sabitlik, iqtisadi inkişaf, qonşu ölkələrlə münasibətlərimiz, nəqliyyat, kommunikasiyalar, elektrik xətləri nöqteyi-nəzərdən qonşu ölkələrlə sıx təmaslar unikal bir vəziyyət yaradır ki, Azərbaycan nəinki xam neft, neft məhsulları və təbii qaz, eyni zamanda, elektrik enerjisinin böyük istehsalçısı və ixracatçısı olacaqdır. Mən buna əminəm, biz artıq bu işin təzahürlərini görürük. Onu da nəzərə almalıyıq ki, qonşu ölkələrdə və Avropa qitəsində elektrik enerjisinə böyük ehtiyac vardır. Biz elektrik enerjisini yalnız ekoloji cəhətdən təmiz mənbələrdən istehsal edirik - təbii qaz, su, günəş və külək. Bir daha demək istəyirəm ki, Azərbaycanda bərpaolunan enerji növlərinin potensialı həddindən artıq böyükdür. Məhz buna görə dünyanın aparıcı enerji şirkətləri indi Azərbaycanla bu sahədə əməkdaşlıq etməyə çox maraqlıdırlar. Əminəm ki, biz yaxın gələcəkdə yeni layihələrin başlanmasına start verəcəyik".

**İsmayıl**

# Prezident İlham Əliyev Sərdar Berdiməhəmmədovu təbrik edib

## "Azərbaycan qardaş Türkmənistan ilə ənənəvi dostluq əlaqələrinin hərtərəfli inkişafına xüsusi əhəmiyyət verir"



**Prezident İlham Əliyev Türkmənistanın yeni seçilmiş Prezidenti Sərdar Berdiməhəmmədova təbrik məktubu göndərib.**

Məktubda deyilir:

"Hörmətli Sərdar Qurbanquliyeviç,

Türkmənistanın Prezidenti vəzifəsinə keçirilmiş seçkilərdə qazandığınız qələbə münasibətilə Sizə ən səmimi təbriklərimi yetirirəm.

Azərbaycan Respublikası tarixi, dini və mədəni köklərlə bağlı olduğu qardaş Türkmənistan ilə ənənəvi dostluq əlaqələrinin hərtərəfli inkişafına xüsusi əhəmiyyət verir. İkitərəfli münasibətlərdə mövcud olan yüksək səviyyəli siyasi dialoq, iqtisadi, enerji, nəqliyyat, humanitar və digər sahələrdə qarşılıqlı faydalı əməkdaşlığımız məmnunluq doğurur. Əminəm ki, Azərbaycan-Türkmənistan strateji tərəfdaşlığı bundan sonra da birgə səylərimizlə inkişaf edərək ölkələrimizin rifahına xidmət edəcəkdir.

Bu xoş fürsətdən istifadə edərək Sizi Azərbaycana səfərə dəvət edirəm.

Sizə möhkəm cansağlığı, xoşbəxtlik, qardaş Türkmənistanın firavanlığı naminə qarşıdakı ali dövlətçilik fəaliyyətinizdə müvəffəqiyyətlər diləyirəm".



# Baş katib: "NATO Ukraynaya hərbi dəstəyini davam etdirəcək"

**NATO Ukraynaya silah və humanitar dəstəyini davam etdirəcək.**

APA xəbər verir ki, bunu alyansın Baş katibi Yens Stoltenberq mətbuata açıqlamasında belə deyib.

"Müttəfiqlər Ukraynanı antitank və hava hücumundan müdafiə sistemləri, dronlar, sursat və yanacaq da daxil olmaqla nəzərəçarpacaq miqdarda vacib ləvazimatlarla təmin edib. Təlimlər və bu ləvazimatlar Ukraynanın özünü müdafiə etməsinə yardım edir. Ukraynanın BMT Nizamnaməsində əks edilmiş fundamental özünümüdafiə haqqı var və NATO müttəfiqləri və tərəfdaşları bu hüquqların qorunması üçün Ukraynaya hərbi ləvazimat, maliyyə və humanitar yardımları davam etdirəcək", - Stoltenberq bildirib.

# Rusiya Baydenə və Blinkenə sanksiya tətbiq edib

## Sanksiyalar ümumilikdə 13 nəfərə qarşı yönəlib




**Rusiya ABŞ rəhbərliyinə və onlarla əlaqəli olan şəxslərə qarşı fərdi sanksiyalar tətbiq edib.**

Bu barədə RF Xarici İşlər Nazirliyinin məlumatında deyilir. Rusiyanın diplomatiya idarəsinin saytında dərc olunmuş siyahıya görə, sanksiyalar ümumilikdə 13 nəfərə qarşı yönəlib.

Siyahıya ABŞ Prezidenti Co Bayden, ABŞ-ın dövlət katibi Entoni Blinken, həmçinin Pentaqonun rəhbəri Lloyd Ostin, ABŞ prezidentinin milli təhlükəsizlik üzrə köməkçisi Ceyk Sallivan, Mərkəzi Kəşfiyyat İdarəsinin direktoru Uilyam Berns, Ağ evin mətbuat katibi Cen Psaki və başqaları daxildir. Rusiya XİN-in məlumatında qeyd edilir ki, bu addım RF-nin yüksək vəzifəli şəxslərinin ABŞ-a getməsinə qoyulan qadağa da daxil olmaqla, görünməmiş sanksiyalar seriyasına cavab olaraq atılıb.

# Azərbaycan quru sərhədlərini açmağa tələsmir

## Baş nazir deyib ki, karantin qaydaları yumşaldılıb, amma pandemiya aradan qalxmayıb




**Deputat Qüdrət Həsənquliyev Milli Məclisdə çıxışı zamanı Azərbaycan vətəndaşlarının quru sərhədini keçə bilməməsindən şikayətlənib. Bildirib ki, yalnız hərbi və fövqəladə hallar zamanı bu, tətbiq edilməyə bilər:**

"Azərbaycan vətəndaşları Konstitusiyaya əsasən, öz ölkəsinə hər zaman maneəsiz qayıda bilər. Buna baxmayaraq, Azərbaycan vətəndaşları bu gün quru sərhədi keçə bilmir". **Deputat Razi Nurullayev də baş nazir Əli Əsədovdan Rusiya ilə quru sərhədlərinin açılmasını xahiş edib:** "Vətəndaşlarımızın Rusiya ilə quru sərhədini keçməsinə şərait yaradılmasını istərdik".

Baş nazir Əli Əsədov isə deyib ki, "Sanitar-epidemioloji sağlamlıq haqqında" qanuna əsasən, hökumətin giriş-çıxışa məhdudiyyət tətbiq etməyə birbaşa səlahiyyəti var. Baş nazir bildirib ki, quru sərhədlərimiz mövcud vəziyyətə görə bağlıdır: "Karantin qaydaları yumşaldılıb, amma pandemiya aradan qalxmayıb. Rusiya hökuməti martın 21-dən başlayaraq hava məkanını yenidən Azərbaycan üçün açır. Dağıstan sərhədində qalan soydaşlarımızın məsələsi də hökumətin diqqətindədir. Amma onlarla bağlı qəti qərar hələ verilməyib".

**İsmayıl**

# "Heç nazir müavinləri bizə cavab vermir"

## Tahir Kərimli yenə gileyləndi



**"Hökumət üzvləri bizə cavab vermir. Nəinki nazir, heç nazir müavini səviyyəsində də bizə cavab verilmir".**

Bunu Milli Məclisin iclasında parlamentin İnsan hüquqları komitəsinin sədr müavini, Vəhdət Partiyasının sədri Tahir Kərimli deyib. Deputat bildirib ki, onlar deputatların zənglərinə cavab vermir, "Deputat statusu haqqında" qanuna əməl etmirlər. O, şəhid adlarının məktəblərə verilməsində çətinliklərin olduğunu diqqətə çatdırıb: "Nazirlər Kabineti müvafiq qərara dəyişiklik etməlidir".

Özəlləşmə məsələsinə toxunan T.Kərimli özəlləşdirmə zamanı keçmişdə yol verilmiş səhvləri Qarabağda təkrarlamamağa çağırıb. Deputat təklif edib ki, əməkhaqqı artımı 1000 manat və daha yüksək deyil, aşağı əməkhaqqı alanlara şamil edilsin: "Onların maaşı daha çox artırılmalıdır". Tahir Kərimli kəndlərdə həkim, xarici dil müəllimi çatışmadığını da vurğulayıb.

**İsmayıl**

# Pekin hələ məsafə saxlayır

## Çin anlayır ki, Rusiyaya hərbi texnika göndərsə, bunun iqtisadiyyatına ağır nəticələri olacaq

**Rəsmi Pekin Rusiyanın Çindən hərbi və iqtisadi yardım istəməsi ilə bağlı iddialarına münasibət bildirib. Bildirilib ki, məlumatlar dezinformasiya kimi qiymətləndirilir. ABŞ rəsmiləri isə Rusiyanın müharibənin ilk günündən etibarən Çindən hərbi dəstək istədiklərini vurğulayıblar.**



Ancaq hansı texnikaların istənildyi hələlik açıqlanmayıb. Çinin Xarici işlər naziri Van İ bildirib ki, Pekin Ukraynadakı böhranın sülh yolu ilə həllinə töhfə verməyə hazırdır. Onun sözlərinə görə, beynəlxalq aləmdə ayrı-ayrı qüvvələr Ukrayna böhranı ilə bağlı Çin tərəfinin obyektiv və ədalətli mövqeyini ləkələməyə çalışırlar: "Çin həmişə digər dövlətlərin suverenliyinə və ərazi bütövlüyünə hörmət edilməsini, habelə BMT Nizamnaməsinin müddəalarına və prinsiplərinə hörmət prinsiplərinə sadiqdir. Çin böhranda tərəf kimi çıxış etmir və sanksiyaların ölkəyə əks olunmasını qətiyyən istəmir".

**"Atlas" Araşdırmalar Mərkəzinin rəhbəri Elxan Şahinoğlu vurğulayıb ki, ABŞ-ın "Financial Times" qəzetinin rəsmi mənbələrə istinadən "Rusiya Çindən hərbi texnika və digər yardımlar istəyib" xəbəri geniş əks-səda doğurub. Pekin bu xəbəri təkzib edib.** Eyni zamanda Moskva Ukraynada apardığı müharibədə hansısa dövlətin dəstəyinə ehtiyac duymadığını açıqlayıb. Ancaq təkzib xəbərləri şübhə doğurur: "Moskvanın kömək üçün Pekinə müraciət etdiyi şübhələri var. Pekin üçün çətindir. Rusiya Çinin siyasi tərəfdaşı, ABŞ isə əsas iqtisadi tərəfdaşıdır. Vaşinqton Pekinlə münasibətləri 1972-ci ildə ABŞ prezidenti Niksonun Çinə səfəri ilə normallaşdırmışdı. Həmin tarixdən başlayaraq iki ölkə arasında iqtisadi və ticarət münasibətləri quruldu. Hazırda bu iki dövlət arasında ticarət dövriyyəsinin həcmi ötən il 755 milyard dollar təşkil edib. Bu məbləğin 576 milyardı Çinin ABŞ-a ixracı təşkil edir. Müqayisə üçün Rusiya ilə Çin arasında ticarət dövriyyəsinin həcmi 146 milyard dollar olub. Bunun 67 milyard dolları Çinin Rusiyaya ixracı təşkil edib. Bu rəqəmlər onu göstərir ki, Çin üçün ABŞ bazarı daha vacibdir. Bundan başqa Çin ABŞ-ın səhm bazarında da fəal mövqedədir. Vaşinqton Pekini Rusiyanı dəstəkləməkdən xəbərdar edib. İtaliyanın paytaxtı Romada ABŞ və Çin rəsmiləri arasında qapalı şəraitdə görüş keçirilib. Görüşdə Vaşinqtonu ABŞ prezidentinin milli təhlükəsizlik məsələləri üzrə müşaviri Ceyk Sallivan, Çini isə bu ölkənin Kommunist Partiyasının xarici siyasət məsələləri üzrə şöbəsinin müdiri Yan Tseci təmsil edib. Görüşün necə nəticələndiyi barədə məlumat yoxdur. Aydındır ki, bu görüşdə Vaşinqton xəbərdarlığını bir daha Pekinə xatırladıb.

Vaşinqton Pekinin Moskva ilə tərəfdaşlıq amilini nəzərə alsa da, Çinin Rusiyaya hərbi dəstəyinin qarşısını almağa çalışır. Vaşinqton Pekini sanksiyalarla hədələyib. Çinin dövlət şirkətləri sanksiya qorxusundan Rusiyaya bir sıra məhsulları ixrac etməkdən imtina ediblər. Pekin anlayır ki, Rusiyaya hərbi texnika göndərsə, bunun Çin iqtisadiyyatı üçün ağır nəticələri olacaq. Pekin Ukrayna müharibəsinə görə Vaşinqtonun siyasətini tənqid etsə də, Rusiyanın Ukraynanı işğalı siyasətindən məsafə saxlayır".

**E.Şahinoğlu bildirib ki, Amerika ilə danışıqlar Pekinin maraqlarına cavab verir:** "Çünki Ukrayna müharibəsi fonunda Çinin siyasətinə maraq artıb. Pekinin Vaşinqtona qarşılıqlı şərti ola bilər: "Rusiyaya dəstək verməmizi istəmirsinizsə, bizə qarşı tətbiq etdiyiniz müxtəlif sanksiyalardan və təzyiq siyasətindən imtina edin!". Vaşinqton Çinə qarşı sanksiyaları yumşalda bilər. Ancaq bu halda Vaşinqton Pekindən tələb edəcək ki, qonşu dövlətləri hədələməkdən, Tayvan adasını hərbi yolla ələ keçirmək siyasətindən imtina etsin".

**İsmayıl**



# Baş nazir hesabat verdi

## “Problemləri birdən-birə həll etmək mümkün deyil”

**Dünən Milli Məclisin yaz sessiyası çərçivəsində növbəti plenar iclas keçirilib. İclasın gündəliyinə Nazirlər Kabinetinin 2021-ci ildə fəaliyyəti haqqında hesabatı daxil edilib. İclasda Baş nazir Əli Əsədov, Maliyyə naziri Samir Şərifov, Hesablama Palatasının sədri Vüqar Gülməmmədov və digər hökumət üzvləri iştirak ediblər.**

Baş nazir Əli Əsədov vurğulayıb ki, hesabata əsasən, Azərbaycan Respublikasının 2021-ci il icmal büdcəsinin gəlirləri 23 milyon 828 min manat proqnoza qarşı 33 milyon 903,7 min manat, yaxud 42,3 faiz icra olunub. Bu, 2020-ci illə müqayisədə 38,6 faiz çoxdur.

**“2021-ci ildə ölkəmizdə inkişaf dinamikası davam edib”**

Baş nazir deyib ki, 2021-ci ildə də Prezidentin rəhbərliyi ilə həyata keçirilən məqsədyönlü siyasət nəticəsində ölkəmizdə sosial-iqtisadi inkişaf dinamikası davam edib. O bildirib ki, inkişafdan hər bir vətəndaşın bəhrələnməsi, işğaldan azad olunmuş ərazilərə əhalinin qayıdışı məqsədilə Prezident ”Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər” ilə bağlı sərəncam imzalayıb: ”Hökumət tərəfindən strategiya artıq təsdiq üçün təqdim olunub. Peyvəndləmə prosesinin artımı, sosial təcrid tədbirlərinin yumşaldılması nəticəsində ölkəmizdə iqtisadi fəallıq bərpa olunub”.

Əli Əsədov qeyd edib ki, 44 günlük Vətən müharibəsində şəhid olmuş şəxslərə, bu müharibədə xəsarət alanlara ümumilikdə 55 milyon manatdan çox sığorta ödənişləri edilib: ”2021-ci ildə yeni silahlar alınıb və ordumuzun müdafiə qabiliyyəti yüksəldilib. Komando qruplarının yaradılması ordumuzun döyüş hazırlığının artırılmasından xəbər verir”.

**“İnflyasiya təzyiqləri yüksəlib”**

**Ə.Əsədov bəyan edib ki, strateji valyuta ehtiyatlarımız xarici dövlət borcunu 7 dəfə üstələyir:** ”2020-ci illə müqayisədə xarici dövlət borcu 8,7 faiz azalıb. 2021-ci ildə dövlət borcunun idarə olunması, şəffaflığın artırılması, ictimaiyyətin büdcə prosesində iştirakının genişləndirilməsi istiqamətində mühüm addımlar atılıb. Büdcə qaydasının tətbiqi artıq bərpa olunub. Onu da qeyd edim ki, dünyanın əksər ölkələrində inflyasiya təzyiqləri yüksəlib. 2021-ci ildə əvvəlki illə müqayisədə enerji qiymətləri 77 faiz faiz artıb. FAO-ya görə ərzaq qiymətləri son on ildə ən yüksək səviyyəyə çatıb. 2021-ci ildə inflyasiyaya xarici amillərin təsiri çoxalıb. Ümumi inflyasiyanın 60 faizi ərzaq inflyasiyasının payına düşür. Məzənnə sabitliyi inflyasiya idxalına azaldıcı təsir göstərib. Antiinflyasiya siyasəti xüsusi aktualdır və hökumətin siyasətinin mühüm hissələrindən biridir. Ötən il ərzində kənd təsərrüfatı məhsullarının istehsalçılarına dövlət tərəfindən maliyyə dəstəyi olaraq 455 milyon manat sərf edilib ki, ərzaq təhlükəsizliyi təmin edilsin”.

**“Azad olunmuş ərazilərin bərpası üçün ötən il ayrılan 2,2 milyard manat vəsait tam icra olunub”**

**Baş nazir qeyd edib ki, respublikada iqtisadi rayonların sayı 14-ə çatdırılıb:** ”Azad olunmuş ərazilərin bərpası və yenidən qurulması ilə bağlı ötən il büdcədən ayrılan 2,2 milyard manat vəsait, demək olar ki, tam icra olunub. Cari ilin dövlət büdcəsində də bu məqsədlər üçün eyni miqdarda vəsait nəzərdə tutulub. Azad olunmuş ərazilərdə sosial infrastruktur layihələri bölgənin inkişafına mühüm təkan verir. Zəngəzur dəhlizi Azərbaycanın həm tarixi nailiyyəti, həm də böyük siyasi qələbəsidir. Zəngəzur dəhlizinin gerçəkləşməsi üçün əməli tədbirlər görülüb və davam etməkdədir”.

Baş nazir vurğulayıb ki, 2021-ci ildə azad olunmuş ərazilərin minalardan təmizlənmə əməliyyatları nəticəsində 20 min hektardan çox ərazi təmizlənib: ”Görülmüş tədbirlər nəticəsində bu il minalardan təmizlənən ərazilərin sahəsi 2 dəfə artırılacaq və 40 min hektar ərazi minalardan təmizlənəcək. Azad olunmuş ərazilərin kənd təsərrüfatı potensialı mühüm əhəmiyyət daşıyır. Dövlət başçısının tapşırığına uyğun olaraq azad olunmuş torpaqların ərazilərində 100 min hektar ərazidə əkin işləri aparılacaq. Ərazi bütövlüyünün bərpa edilməsi nəticəsində vaxtilə itirilmiş su ehtiyatlarına sahib çıxmağımız bu sahənin inkişafı potensialını daha da artırır”.

**“Hökumətin qarşısında bir sıra tapşırıqlar var”**

**Baş nazir Əli Əsədov bildirib ki, qlobal bazarda ərzaq bahalaşmasının ölkəyə təsirinin azaldılması və ərzaq təhlükəsizliyinin təmini əsas vəzifələr**

### Əli Əsədov: “Taxıl ehtiyatlarımızı dəfələrlə artırmaq üzərində çalışırıq”

**sırasındadır:** ”Eyni zamanda kənd təsərrüfatı məhsullarının istehsalını artırmalı, idxaldan asılılığın azaldılmasına nail olmalıyıq. Bunun üçün biz aqrar sektorun inkişafında əsaslı dönüş yaratmalıyıq. Kənd təsərrüfatı bizim üçün həm iqtisadi, həm sosial, həm də təhlükəsizlik məsələsidir. Daxili bazarda ərzaq təhlükəsizliyi istiqamətində tədbirlər görmək məqsədilə Dövlət Ehtiyatlar Agentliyi yaradılıb. Azad edilmiş ərazilərdə bərpa-quruculuq işlərinin həyata keçirilməsi, tarixi-mədəni irsin bərpası, orada əhali üçün şəraitin yaradılması dövlət başçısı tərəfindən hökumət qarşısında qoyulan əsas prioritetdir”.

**“Ölkəmizdə əsas ərzaq məhsulları üzrə lazımi həcmdə ehtiyatlar yaradılıb”**

**Əli Əsədov deyib ki, qonşu ölkələrin maliyyə bank sistemlərinin üzləşdiyi təsirlər Azərbaycana təsir etməyib:** ”Bizim maliyyəmiz stabildir, milli valyutamız dayanıqlıdır. Valyuta ehtiyatlarımız kifayət qədərdir”.

Ə.Əsədov bəyan edib ki, minimum əməkhaqqı artımı üçün 2022-ci ilin dövlət büdcəsindən ayrılan əlavə illik vəsait 460 mln. manat təşkil edir: ”Ümumilikdə 2022-ci il üzrə əməkhaqqı, pensiya və digər sosial ödənişlərin artımı ilə bağlı sosial paket 3,4 mln. şəxsi əhatə edir. Bu artımlar üçün ayrılan illik əlavə vəsait 2,1 mlrd. manat təşkil edir. Azərbaycan Respublikasının ərazi bütövlüyü, müstəqilliyi və müdafiəsi ilə əlaqədar əlil olmuş şəxslərə, şəhid ailələrinə, həmçinin sosial cəhətdən həssas təbəqədən olan digər ailələrə 2021-ci ildə 3000-dən artıq mənzil təqdim edilib. Qaçqın və məcburi köçkünlərin sosial müdafiəsi üçün 2021-ci ilin dövlət büdcəsindən 354 mln. manat vəsait ayrılıb”.

**“2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası təqdim olunub”**

Baş nazir qeyd edib ki, rəqabətqabiliyyətli milli iqtisadiyyatın formalaşdırılması, dayanıqlı iqtisadi artımın sürətləndirilməsi, inkişafdan hər bir vətəndaşın bəhrələnməsi, işğaldan azad olunmuş ərazilərə əhalinin qayıdışının təmin edilməsi məqsədilə Azərbaycan Respublikası Prezidentinin ”Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər”in təsdiq edilməsi haqqında 2021-ci il 2 fevral tarixli Sərəncamı imzalanıb”. Ə.Əsədov qeyd edib ki, sərəncamın icrasının təmin edilməsi və Milli Prioritetlərə uyğun olaraq, ”2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası”nın hazırlanması məqsədilə Nazirlər Kabineti tərəfindən 5 Milli Prioriteti əhatə edən 10 alt İşçi Qrupu yaradılıb: ”Hökumət tərəfindən Strategiya artıq təsdiq üçün təqdim olunub”. Baş nazir bildirib ki, bununla belə, Prezident İlham Əliyevin tapşırığına əsasən, yaranan çağırışlara adekvat, operativ və çevik cavab verilməsi üçün bu istiqamətdə qabaqlayıcı və təxirəsalınmaz tədbirlər görülür: ”Bunun nəticəsi olaraq ölkəmizdə əsas (ərzaq) məhsullar üzrə lazımi həcmlərdə ehtiyatlar yaradılıb və əlavə təchizatla bağlı təxirəsalınmaz tədbirlər görülməkdədir”.

**“Antiinflyasiya tədbirləri iqtisadi siyasətin mühüm istiqamətlərindəndir”**

**Əli Əsədov deyib ki, antiinflyasiya tədbirləri hazırda hökumətin iqtisadi siyasətinin mühüm istiqamətlərindən biridir.** Onun sözlərinə görə, sözügedən tədbirlər işgüzar fəallığa və əhalinin sosial rifahına inflyasiyanın təsirlərinin minimallaşdırılması məqsədi daşıyır. 2021-ci ildə inflyasiyanın xarici amilləri əhəmiyyətli aktivləşmiş və Azərbaycanda xarici mənşəli ərzaq inflyasiyasının təsiri çox olub: ”Təsadüfi deyildir ki, 2021-ci ildə ölkəmizdə əvvəlki illə müqayisədə ortaillik inflyasiya 6,7 faiz, illik inflyasiya isə 12 faiz təşkil edib. Ümumi inflyasiyanın 60 faizi ərzaq inflyasiyanın payına düşüb. Ə.Əsədov qeyd edib ki, tədiyə balansının profisitli olması və qəbul edilmiş makro-fiskal çərçivə məzənnə dayanıqlığını dəstəkləyib, məzənnə sabitliyi inflyasiya idxalına və inflyasiya gözləntilərinə azaldıcı təsir göstərib: ”Antiinflyasiya siyasəti xüsusi aktuallıq kəsb edir”.

**“Su ehtiyatlarımıza yenidən sahib çıxmağımız imkanlarımızı artırır”**

**Baş nazir bəyan edib ki, işğaldan azad edilmiş ərazilərdə bərpa olunan yaşıl enerjinin real tətbiqi istiqamətində konkret tədbirlər görülür:** ”Təbii olaraq ölkəmizin ərazi bütövlüyünün təmin edilməsi nəticəsində vaxtilə itirilmiş su ehtiyatlarımıza yenidən sahib çıxmağımız su təminatı, kənd təsərrüfatı və alternativ enerji sahəsində imkanlarımızı da artırır. İşğaldan azad edilmiş ərazilərin elektrik təchizatı infrastrukturunun yaradılması və respublikanın enerji sisteminə inteqrasiya olunması işləri uğurla davam etdirilir. Yeri gəlmişkən, bu gün cənab Prezidentin iştirakı ilə Birləşmiş Ərəb Əmirliklərinin ”Masdar” şirkəti tərəfindən tikiləcək 230 MVt gücündə günəş elektrik stansiyasının (225 mln. ABŞ dollarından çox) təməli qoyulur”.

**“11-12 cür ərzaq məhsulu üzrə problemlər var”**

**Əli Əsədov diqqətə çatdırıb ki, millət vəkilləri öz seçicilərinin adından fikirlərini səsləndirirlər, çıxışlarında təriflər də, tənqidlər də olur:** ”Ancaq əsas məqam ondan ibarətdir ki, Milli Məclisin və hökumətin amalı birdir. Problemləri birdən-birə həll etmək mümkün deyil”.

Ə.Əsədov qeyd edib ki, ehtiyatlarımızı, o cümlədən taxıl ehtiyatlarımızı dəfələrlə artırmaq üzərində çalışırıq: ”Məsələ tək taxılda deyil. Uşaq qidasından başlamış digər məhsullarda da qiymət artımları var. Minimum istehlak səbətinə aid olan 11-12 cür ərzaq məhsulu üzrə problemlər var. Hökumət bu məsələlərlə məşğul olur”.

**“300-dən çox rayon və kənd dağıdılıb, bərpası 1 ilin işi deyil”**

**Baş nazir deyib ki, illər boyu komunalla, yolla, enerjiylə bağlı məsələlər qaldırılır:** ”Qazlaşma ilə əlaqədar demək istəyirəm ki, 97 faiz qazlaşma ən böyük qaz ixrac edən ölkələrdə də yoxdur. Problemlər var və o istiqamətdə işlər görüləcək. Ümumiyyətlə, bizim iqtisadi durumumuz və vəziyyətimizi yada salım. 2019-cu ildən başlayaraq neft qiymətləri aşağı düşdü, dünyanı və Azərbaycanı pandemiya bürüdü. Tətbiq edilən məhdudiyyətlər şəraitində həm dövlət müəssisələri, həm dövlət təşkilatları, həm də özəl şirkətlər qapanırdı. 2020-ci ildə uzun illər arzumuz olan Qarabağ məsələsini nöqtələdik. Burada mən bunun hərbi, maliyyə hissəsinə toxunmayacam. Ancaq şəhidlərimiz, qazilərimiz və onların ailə üzvlərinə göstərilən qayğı var. Ermənistanla olan sərhədlərin qurulması əsas prioritetdir. 300-dən çox rayon və kənd dağıdılıb. Bunların bərpası 1 ilin işi deyil”.

**“Qarabağın dirçəldilməsi 1-2 ilin işi deyil”**

**Baş nazir qeyd edib ki, azad olunmuş ərazilərdə 16 layihə üzrə 1500 km yol çəkilib:** ”Azad olunmuş torpaqlarda şirkətlərin hansı şəraitdə çalışdığını yəqin ki, ora gedənlər bilir. Qarabağın dirçəldilməsi 1-2 ilin işi deyil. Məcburi köçkünlərin Qarabağa qaytarılması üçüm layiqli həyat şəraiti yaradılmalıdır. Layiqli həyat şəraiti insanlar üçün hazırlanır. Uzun illər məcburi köçkünlər üçün nə lazımdır edilmişdi, amma onlar illər boyu öz torpaqlarına qayıtmağı ölkə başçısından istəyiblər. Qarabağ bizim üçün bir nömrəli məsələdir. Digər rayonlarda, bölgələrdə yaşayan insanların da tələbatını ödəmək lazımdır. İmkana, uyğun olan maliyyə vəziyyətinə baxılaraq onların da işinə baxılacaq. Azərbaycan hökuməti üçün bütün Azərbaycanın rayonları eynidir. Hansısa rayonda, bölgədə texniki və digər məsələlərlə əlaqədar rəqəmlərdə fərq ola bilər. Ancaq yanaşma eynidir”.

**İsmayıl Qocayev**

# Bakı birbaşa İrəvanla danışıqlar tələb edir

## Ermənistan isə Azərbaycanın 5 şərtinə Minsk qrupu ilə qarşılıq verib



“İndiki halda ATƏT Ermənistan ilə Azərbaycan arasında yekun sülh müqaviləsinin imzalanmasında əsas rol oynayacaq səlahiyyətində deyil”

**Ermənistan tərəfi Azərbaycanın iki ölkə arasında sülhlə bağlı irəli sürdüyü 5 baza prinsipləri təklifinə cavab verib. Rəsmi İrəvan müzakirələrə hazır olduğunu bəyan edərək, Azərbaycanla sülh sazişinin imzalanması üzrə danışıqların təşkili üçün ATƏT-in Minsk qrupunun həmsədrliyinə müraciət etdiyini açıqlayıb.**

Yəni İrəvan hökuməti rəsmi Bakının 5 şərtinə ”ATƏT-in Minsk qrupu” ilə qarşılıq verib. Ermənistan tərəfi vurğulayıb ki, proses Helsinki Yekun Aktı və BMT-nin Mülki və Siyasi Hüquqlar üzrə Beynəlxalq Paktı üzrə təşkil edilməlidir. Son günlər Ermənistanın verdiyi açıqlamalar qarşı tərəfin sülh sazişinin imzalanmasında maraqlı olduğunu göstərirdi. Lakin Helsinki Yekun Aktında ərazi bütövlüyünün toxunulmazlığı ilə yanaşı, ”öz müqəddəratını təyinetmə” məsələsi də əks olunur. O cümlədən, Mülki və Siyasi Hüquqlar üzrə Beynəlxalq Paktı ”öz müqəddəratını təyinetmə” prinsipinə əsaslanır. Bu, İrəvanın sülh sazişinə Qarabağdakı ermənilərin ”öz müqəddəratını təyinetmə” hüququnu daxil etmək niyyətindən xəbər verir. Lakin hər iki beynəlxalq sənəd beynəlxalq hüquqa əsasən ərazi bütövlüyünün pozulması ilə nəticələnməsinə də qarşıdır. Bu o deməkdir ki, Ermənistan qarşılıqlı şəkildə ərazi bütövlüyünün tanınmasına razıdır, lakin Azərbaycanın Qarabağda erməni əhalisinin hüquqlarının təmin edilməsinə zəmanət verməsini istəyir.

**Siyasi şərhçi Turan Rzayev ”Şərq”ə açıqlamasında bildirib ki, Ermənistan XİN başçısı Arorat Mirzoyan problemin həlli yollarının hələ tapılmadığını, bu formatda danışıqların davam etdirilməsinin vacib olduğunu deyib. Analitik xatırladıb ki, Mirzoyan həmsədrlərin ”xalqların öz müqəddəratını təyinetmə hüququ” barədə mövqeyini də xatırladıb:** ”Göründüyü kimi, rəsmi İrəvan Bakının iki dövlət arasında münasibətlərin normallaşması üçün təklif etdiyi konstruktiv beş baza prinsipinə həmişəki kimi ATƏT-in Minsk qrupu kartı ilə cavab verir. Lakin ATƏT-in Minsk qrupu hazırda nə iki ölkə arasında həllini gözləyən məsələləri həll etmək iqtidarında, nə də Ermənistan ilə Azərbaycan arasında yekun sülh müqaviləsinin imzalanmasında əsas rol oynayacaq səlahiyyətdədir. Birincisi, Minsk qrupunun həmsədrlərinin Ermənistanla Azərbaycan arasında yekun sülh müqaviləsinin imzalanması istiqamətində hər hansı bir təşəbbüs irəli sürmək mandatı yoxdur. Həmsədrlər keçmiş Dağlıq Qarabağ münaqişəsinin həlli ilə məşğul olmalı idilər. Rəsmi Bakı isə açıqca qeyd edir ki, hazırda belə bir münaqişə yoxdur. Azərbaycan Ordusu məsələni özü həll edib. İkincisi, hazırda davam edən Ukrayna-Rusiya müharibəsi var. Müharibə fonunda həmsədr ölkələr əks tərəflərdə yer alıb. Rusiyaya qarşı Ukraynaya iqtisadi və silah dəstəyi verən, həmçinin sərt sanksiyalar tətbiq edən ABŞ və Fransanın Azərbaycan ilə Ermənistan arasında hansısa bir sülh müqaviləsinə dair razılığa gəlməsi qeyri-real və absurddur. Üçüncüsü, rəsmi Bakı indiki məqamda iki dövlət arasında münasibətlərin normallaşması üçün beş baza prinsipini vasitəçi tərəf olmadan, birbaşa Ermənistana təklif edib. Yəni Azərbaycan Ermənistanla 3-cü bir tərəf vasitəsilə danışıqlara getmək istəsə idi, bunu bu və ya başqa formada təklif edərdi.

Nəticə etibarilə, indiki məqamda Ermənistanın təklif edilən 5 baza prinsipi üzrə danışıqlara başlamaqdan başqa seçimi yoxdur. Rəsmi İrəvan bundan yayınsa Bakı antiterror əməliyyatlarına başlaya bilər”.

**İsmayıl Qocayev**

# Hökumət bahalaşmanın qarşısını ala bilməyəcək

## Çünki artıq Ukraynadan və Rusiyadan bir çox məhsullar idxal olunmur



**“Ukraynadakı hadisələr səbəbindən bəzi narahatedici məqamlar var. Bunlar nəqliyyat-logistika, qiymət artımı, idxal olunan məhsullar və müxtəlif qadağalarla bağlı problemlərdir”.**

Bunu Milli Məclisin dünən keçirilən iclasında Nazirlər Kabinetinin 2021-ci ildə fəaliyyəti haqqında hesabatını təqdim edən Baş nazir Əli Əsədov deyib.

Baş nazir bildirib ki, bununla belə, Prezident İlham Əliyevin tapşırığına əsasən, yaranan çağırışlara adekvat, operativ və çevik cavab verilməsi üçün bu istiqamətdə qabaqlayıcı və təxirəsalınmaz tədbirlər görülür: ”Bunun nəticəsi olaraq ölkəmizdə əsas (ərzaq) məhsullar üzrə lazımi həcmlərdə ehtiyatlar yaradılıb və əlavə təchizatla bağlı təxirəsalınmaz tədbirlər görülməkdədir”.

Azərbaycanda ötən ilin sonlarından etibarən bir çox sahələrdə müntəzəm olaraq qiymət artımları yaşanır. Belə bir zamanda, Azərbaycanla geniş ticarət əlaqələri olan ölkələr arasında baş verən müharibə xalqın güzəranını daha da ağırlaşdıracaq.

*Qiymət artımı hansı məhsullarda müşahidə edilə bilər?*

**Mövzu ilə bağlı ”Şərq”ə açıqlama verən iqtisadçı Xalid Kərimli bildirib ki, bahalaşma qaçılmazdır.**

”Azərbaycan bir çox məhsulları Rusiya və Ukraynadan alır. Ukraynadan alınmış məhsulları mağazalarda da görə bilərsiniz. Bunlara maye yağlar, ət-kolbasa, toyuq məhsulları, şəkər tozu və s. kimi gündəlik ərzaq məhsulları daxildir. Kifayət qədər əlverişli qiymətlərlə idxal olunurdu. Eyni şəkildə Rusiyadan da taxıl və ərzaq məhsulları ölkəyə gətirilirdi.

Hazırda Ukraynada ixracat təşkil oluna bilmir. Rusiyada isə ödənişlə bağlı qeyri-müəyyənlik mövcuddur. Məhsullar verilsə belə daşıma problemi yaranacaq. Çünki Rusiyada daşıma xərcləri ciddi şəkildə artır. Əlavə olaraq, Moskva bəzi məhsulların ixracına qadağa qoyub. Digər tərəfdən Qərbin sanksiyaları da bu məhsulların bahalaşmasına səbəb olacaq. Bazarlarda qiymətlər onsuz da qalxmışdı, bundan sonra da qalxacaq”.

**İqtisadçının sözlərinə görə, hökumətin bahalaşma prosesinin qarşısını almaq üçün görə biləcəyi heç bir tədbir yoxdur:**

”Çünki məhsullar bu ölkələrdə istehsal olunur. Qiymətləri isə bazar tənzimləyir.

Dövlət sadəcə büdcəyə əsasən kompensasiyalar verə, sosial ödənişləri, pensiyaları artıra bilər. Dövlət artımlara nəzarət etsə belə, bu da effekt verməyəcək. Biz qiymət artımlarını bazarlarda, mağazalarda hiss edəcəyik”.

**Sənan İsmayıl**



# "Bir gün çox azdır"

## “Burda elə bil parlament hökumətə hesabat verir, hökumət Milli Məclisə yox”

**”Hökumətin hesabatına Milli Məclisdə bir gün ayrılması düzgün deyil”. Bunu Milli Məclisin dünən keçirilən iclasında deputat, Vətəndaş Həmrəyliyi Partiyasının sədri Sabir Rüstəmxanlı deyib. Deputat bildirib ki, yazıla bilənlər danışır, yazıla bilməyənlər isə öz rayonundakı problemi qaldıra bilmir:**

”Bizim üçün əlçatan tribuna buradır. Hökumət üzvlərinə çıxış imkanımız demək olar ki, yoxdur. Zəng edirik, problem deyirik, deyirlər geri dönəcəyik və s. Burda da elə bil parlament hökumətə hesabat verir, hökumət Milli Məclisə yox. Bir gün çox azdır”. S.Rüstəmxanlı təklif edib ki, Milli Məclisdə azlıqda olan partiya təmsilçilərinə də söz verilsin. Spiker Sahibə Qafarova isə bildirib ki, S.Rüstəmxanlı çıxış etmək üçün yazılanlar sırasında 29-cudur, vaxt çatsa, ona da söz verəcək.

**“Kür adında ekoloji fəlakətin astanasındayıq”**

**Deputat Fazil Mustafa qeyd edib ki, ölkəmiz Kür adında ekoloji fəlakətin astanasındadır:** ”Bu problem vaxtında həll edilməyib. İş adamları xaricə qaçır, orada da fəlakət baş verəndə ölkə itkilərə məruz qalır. Ukrayna nümunəsi var. Ukraynada nə qədər vətəndaşımızın biznesi, qoyduğu sərmayə batdı. Hökumət mütləq maliyyə amnistiyası verməli, tikinti amnistiyası olmalıdır. Tikinti-əmlak amnistiyasına getməliyik. Müvafiq sənədləri olmadan inşa edilmiş yaşayış evləri və onların altındakı torpaq sahələri ilə bağlı qanunvericilik aktı hazırlanıb, Milli Məclisə təqdim edilsin, biz də vaxt itirmədən qəbul edək”.

**“Digər sahələrdə də israfçılığa yol veririk”**

**Deputat Tahir Rzayev deyib ki, israfçılığın qarşısının alınması üçün hökumət tərəfindən tədbirlər planının hazırlanmasına ehtiyac var:** ”Toylarda süfrəyə 15-16 növ ərzaq məhsulu qoyulur. Aydındır ki, bunun hamısını yeyə bilmərik. Bu, sadəcə, israfçılıqdır. Digər tərəfdən, deyirlər ki, qalan hissəsini sabah yenidən süfrəyə qoyacağıq. Bu da qida təhlükəsizliyi baxımından uyğun deyil və AQTA-nın işini artırır. Ümumiyyətlə, digər sahələrdə də belə israfçılığa yol veririk. Hazırda dünyanı ən çox narahat edən problemlərdən biri də ərzaq təhlükəsizliyidir. Ərzaq qıtlığı artıq bir çox ölkədə yaşanır. Ona görə də hökuməti israfçılığın qarşısını almaqla bağlı addımlar atmağa çağırıram”.

### Sabir Rüstəmxanlı:
### “Hökumət üzvlərinə çıxış imkanımız demək olar ki, yoxdur. Zəng edirik, problem deyirik, deyirlər geri dönəcəyik”

**“Klinikalarımızda böyük növbələr var”**

**Milli Məclisin Səhiyyə komitəsinin sədri Əhliman Əmiraslanov bildirib ki, əhali icbari tibbi sığorta ilə bağlı Xidmətlər Zərfi çərçivəsində 2500-dən çox xidmət ala bilər.** Onun sözlərinə görə, əvvəllər insanlar üçün əlçatmaz olan bir çox tibbi xidmətlər artıq pulsuz əhaliyə təqdim edilir: ”Əhali tərəfindən icbari tibbi sığortanın həyata keçirilməsi ilə bağlı narahatlıqlar mövcuddur. Birinci, bir çox yüksək texnologiyalı əməliyyatların həyata keçirilməsi üçün klinikalarımızda böyük növbələr var. İcbari tibbi sığorta zərfinin genişlənməsinə də böyük ehtiyac var. İcbari Tibbi Sığorta Agentliyinin rəhbərliyi gələcəkdə bunu nəzərə almalıdır. Azad olunmuş ərazilərdə yeni tibb müəssisələrinin yaradılmasına başlanıldığını da qeyd etmək istərdim”.

**“Bakı-Quba yolu çox bərbad vəziyyətdədir”**

**Milli Məclisin  İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin üzvü Vahid Əhmədov Bakı-Quba yolunun bərpasına vəsait ayrılmasını xahiş edib:** ”Bakı-Quba yolu çox bərbad vəziyyətdədir. Bu yolla gedib-gəlmək qeyri-mümkündür. Quba, Qusar turizm bölgəsidir, əvvəllər çox insanlar bu yerlərə gedirdilər. Amma yolun bu hala düşməsindən sonra gedənlərin sayı xeyli azalıb. Baş nazirdən xahiş edirəm ki, bu yolun təmirinə vəsait ayırasınız. Çünki mən sual ünvanlayanda aidiyyəti qurumlar deyir ki, alternativ yol çəkiləcək. Amma o yol tezliklə çəkilməyəcək. Ona kimi mövcud yol təmir edilsə, yaxşı olar”.

**Deputat Azər Badamov isə bildirib ki, Qusar rayonunun bir çox kəndləri qazlaşdırılmayıb:** ”Son 4 ildə Qusar rayonunda heç bir dənə də yaşayış yerinin qazlaşdırılması baş verməyib. Baxmayaraq ki, ölkə üzrə qazlaşdırma 96 faizi keçib. Müvafiq qurumdan Qusar rayonunun kəndlərinin qazlaşdırılması məsələsinə baxılmasını istəyirəm”.

**“Rusiyadan pul göndərilməsində axsama olacaq”**

**Millət vəkili Qüdrət Həsənquliyev vurğulayıb ki, 2021-ci ildə muzdla çalışan işçilərin sayının 2020-ci ilə nisbətən artdığı hesabatda qeyd edilib, 20 min yeni iş yerinin açıldığı bildirilib:** ”Bu rəqəm çox azdır. Bu, bizi qane edə bilməz. Başqa diqqətçəkən məqam isə odur ki, ərzaq məhsullarının inflyasiyası 8 faizdən çoxdur. Xaricdən pulların göndərilməsində də Rusiyada olan problemlər səbəbindən axsamalar olacaq. Bu isə əhalinin müəyyən sosial problemlərlə üzləşməsinə səbəb ola bilər”. Q.Həsənquliyev 2021-ci ildə respublikanın sənaye sektoruna 7 milyarddan çox, qeyri-neft sektoruna isə 1 milyarddan çox vəsait qoyulduğunu xatırladıb, bunu çox kiçik rəqəm adlandırıb.

**“Deputatlarla nazir müavinləri görüşsün...”**

**Deputat Cavid Osmanov deputatlarla Baş nazirin müavinlərinin görüşünün keçirilməsini təklif edib:** ”Bu, rayonlardakı problemlərin həlli üçün yaxşı nəticə verə bilər. Baş nazirin müavinləri ilə deputatlar rübdə bir dəfə rayonlarda olan problemləri müzakirə etsinlər. Bununla hesabat iclasına qədər rayonlarda olan problemlərin həllinə daha çox nail ola bilərik. Bu həm də hökumət və parlament arasında əlaqələrin daha da möhkəmlənməsinə səbəb olar”.

**İsmayıl Qocayev**

# Savaşın bitəcəyi tarix açıqlandı

## Mayın əvvəllərindən gec olmayaraq sülh razılaşması reallaşa bilər



### Davamlı görüşlərdə nümayəndələr ortaq məxrəcə gəlməyin mümkünlüyünü görüblər

**Rusiya ilə Ukrayna arasında razılaşma 1-2 həftə ərzində imzalana bilər. Bu barədə Ukrayna prezident ofisinin rəhbərinin məsləhətçisi Aleksey Arestoviç deyib. O bildirib ki, mayın əvvəllərindən gec olmayaraq, sülh razılaşması reallaşa bilər:**

”Ən uzaq tarixi götürürəm”. Ukrayna Prezidenti Vladimir Zelenskinin ofisinin direktor müavini İqor Jovka da deyib ki, Rusiya daha konstruktiv mövqe nümayiş etdirir.

O bildirib ki, rəsmi Moskvanın mövqeyinin əvvəlkilərlə müqayisədə daha konstruktiv olduğuna inanır: ”Ultimatumlar vermək, ”qırmızı xətt”lər və ya kapitulyasiya istəmək əvəzinə, indi onların konstruktiv danışıqlara başladığı görünür”. Rusiyanın Xarici işlər naziri Sergey Lavrov isə vurğulayıb ki, danışıqlar Ukraynanın neytral statusunun təmin edilməsinə istiqamətlənib. Qeyd edək ki, Rusiya ilə Ukrayna nümayəndə heyətlərinin danışıqlarının 5 raundu keçirilib.

**Rəsmi Kiyevin Rusiyanın mövqeyi ilə bağlı bəyanatlarını ”Şərq”ə dəyərləndirən politoloq Turab Rzayev bildirib ki, Kreml Ukrayna qarşısında çox ağır şərtlər qoymuşdu. Ekspert xatırladıb ki, Moskva Krımın ”Rusiya ərazisi” kimi tanınmasını, Donbasdakı separatçı ”respublikaları”nın ”müstəqilliyi”, ordunun tərksilah edilməsi, Qərbə təmas olunmaması mümkünsüz tələblər idi:** ”Kiyev bunların heç birini qəbul edə bilməzdi. Zelenski hökuməti Kremli sülh istəməməkdə, sadəcə vaxt qazanmağa çalışmaqda ittiham edirdi. Görünür, gedişatı nəzərə alan Moskva bəzi şərtlərini yumşaldıb, yaxud vaz keçib. Davamlı görüşlərdə nümayəndələr ortaq məxrəcə gəlməyin mümkünlüyünü görüblər. Yumşalma prosesində Antalya Forumunun da rolu istisna deyil. Məhz Ankaranın vasitəçiliyi ilə Lavrovla ukraynalı həmkarı bir araya gələ bildi. Rusiyanın daha normal tələblər irəli sürməsi Kiyev tərəfindən yumşalma kimi dəyərləndirilir”.

**İsmayıl Qocayev**



# Ankara müharibəni dayandırmağa çalışır

## Danışıqlar yalnız Putin-Ərdoğan və Lavrov-Çavuşoğlu arasında aparılır

**Dünən Türkiyənin Xarici işlər naziri Mövlud Çavuşoğlu Sergey Lavrovla telefon danışığı apardığını söyləyib:**

”Sergey Lavrovla danışığım oldu, tezliklə yaxşı xəbərlər ola bilər”.

O qeyd edib ki, Türkiyə Ukraynanın ərazi bütövlüyünü dəstəkləyir:

”Rusiya ilə Ukrayna arasında davamlı sülhün, atəşkəsin təmin edilməsi üçün əlimizdən gələni etməyə davam edirik”.

**Çavuşoğlu və Lavrov arasındakı pərdəarxası danışıqları ”Şərq”ə şərh edən  siyasi şərhçi Samir Hümbətov bildirib ki, görüşün görünməyən tərəfində sərt fikirlər səsləndirilir:**

”Lavrovla Çavuşoğlu arasında aparılan danışıqların Ukrayna-Rusiya savaşının  dayanmasına təsir edəcəyi inandırıcı görünmür. Bu yalnız tərəflərin yenidən danışıqlara cəlb edilməsi məqsədi daşıyır. Türkiyə Rusiyanı buna məcbur edir. Çavuşoğlu Rusiyanın geri addım atmalı olduğunun vacibliyini Lavrova başa salmağa çalışır. Əgər Kreml bunu etməzsə, iki ölkə arasındakı münasibətlər qırılacaq. Çünki Türkiyə NATO üzvüdür və bu qurumun verdiyi qərarla razılaşmalıdır. Belə olan təqdirdə, Rusiya təklənəcək. Həmçinin Ukrayna ilə Türkiyə arasında 2020-ci il 16 oktyabr hərbi müttəfiqlik haqqında sənəd imzalanıb. Çavuşoğlu Lavrova bildirib ki, Türkiyənin Ukraynanı müdafiə etmək öhdəliyi var. Bu müttəfiqlik Ankara və Moskvanı üzüzə gətirəcək. Türkiyə də müharibəni qazanmaq üçün əlindən gələni edəcək. Bu səbəbdən rəsmi Ankara təklif edir ki, danışıqlarda nəticəyə gəlmək lazımdır”.

*Ekspert qeyd edib ki, Lavrov Türkiyənin vasitəsilə Rusiyanın səsini dünyaya çatdırmaq istəyir:*

”Qərb ölkələri Rusiya prezidenti ilə müzakirə aparmaq istəmirlər. Düzdü, bəzən Makron Putinlə danışır. Lakin bu, formal xarakter daşıyır. Danışıqlar yalnız Putin-Ərdoğan və Lavrov-Çavuşoğlu arasında aparılır. Rusiya mətbuatı beynəlxalq mediadan təcrid edildiyi üçün Rusiyanın mövqeyi dünyaya çatdırılmır. Buna görə, Rusiya Türkiyə vasitəsilə dünya ölkələri ilə əlaqə qurmağa çalışır. Məsələn, elə Lavrov Antalyada jurnalistlərin suallarını cavablandıraraq Rusiyanın səsini xaricə çatdırmaq istədi”.

**Xanlar Əlibəy**

# Natəvanın ən böyük əsərinin adı Şuşadır

## Qarabağ hökmdarının sonuncu varisi Şuşa üçün faydalı, saysız-hesabsız xeyriyyə işləri görüb

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 2021-ci ilin mayında Şuşanı Azərbaycanın Mədəniyyət paytaxtı elan etdi.  Bu sərəncamın ardınca, digər məntiqi sərəncamlar da özünü çox gözlətmədi. İlham Əliyevin növbəti sərəncamı  2022-ci ilin ”Şuşa ili” elan edilməsiylə bağlı oldu.**

Bu günlərdə isə cənab Prezident Xurşidbanu Natəvanın 190 illiyinin qeyd edilməsi haqqında Sərəncam imzalayıb. Bu sərəncamların hansı əsaslara söykəndiyi bəllidir. Şuşanın təməlinin qoyulmasının 270 illiyi tamam olur. Şuşanın mədəniyyətimizin beşiyi olması da əlavə sübuta ehtiyac duyulmayan həqiqətdir. Xurşidbanu Natəvan da Şuşanın ismət rəmzidir. Şuşa  həm də Xan qızının şəhəridir.

Xatırladaq ki, Prezidentin imzaladığı sərəncamda Xurşidbanu Natəvanın anadan olmasının 190 illiyinə hazırlıq işləri barədə konkret tapşırıqlar qeyd edilib. Sərəncamda bildirilir ki, ”Qarabağ xanlığının sonuncu varisi Xan qızı Natəvan mənbəyini doğma təbiətin gözəlliklərindən alan ədəbi yaradıcılığını xalqa məhəbbət nümunəsinə çevrilən xeyriyyəçilik fəaliyyəti ilə ahəngdar şəkildə uzlaşdırmış, yaşadığı Şuşa şəhərinin abadlığı və mədəni həyatının canlılığı üçün böyük zəhmət sərf etmiş, humanist təbiətinə və nəcibliyinə görə tanınıb fədakarlıq və mərhəmət mücəssəməsi kimi sevilmişdir. Xurşidbanu Natəvan Azərbaycan ədəbiyyatı tarixində diqqətəlayiq yer tutan söz ustalarındandır. İncəsənətin ayrı-ayrı növlərinə dərindən bələd olan sənətkar Şərq poetik ənənələrinə sədaqətlə yazıb yaradıb, mənəvi saflığa çağıran və insana məhəbbət, həqiqətə inam hissi aşılayan, zərif lirizmə malik və parlaq bədii boyalarla zəngin bir irs qoyub gedib. Onun başçılıq etdiyi ədəbi məclis öz ətrafında dövrün qabaqcıl ziyalılarını toplayıb və Qarabağ ədəbi mühitinin inkişafına güclü təsir göstərib. Xurşidbanu Natəvanın yaradıcılığı həmişə diqqət mərkəzində saxlanılıb, xatirəsinin əbədiləşdirilməsi istiqamətində ölkəmizdə bir sıra tədbirlər həyata keçirilib, o cümlədən 1960-cı ildə Bakıda şairənin heykəli, 1982-ci ildə Ulu Öndər Heydər Əliyevin iştirakı ilə Şuşada büstü ucaldılıb. Ermənistan silahlı qüvvələrinin 1992-ci ildə Şuşanı işğal edərək buradakı tarixi-memarlıq və mədəniyyət abidələrini vandalcasına dağıdarkən güllə ilə zədələdikləri həmin büst 44 günlük Vətən müharibəsində şəhər şanlı Azərbaycan Ordusu tərəfindən azad olunduqdan sonra əzəli məkanına qaytarılıb. Bu gün Natəvanın Şuşada yenidən ucalan və möhtəşəm Zəfərimizin təntənəsini nümayiş etdirən büstü, eyni zamanda, xalqımızın milli-mədəni irsə qayğısının rəmzi və mənəvi dəyərlərə ehtiramının təzahürüdür”. Sərəncama əsasən, Mədəniyyət Nazirliyi, Azərbaycan Yazıçılar Birliyinin təkliflərini nəzərə almaqla, Xurşidbanu Natəvanın 190 illiyinə dair tədbirlər planı hazırlayıb həyata keçirəcək, Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll edəcək.



**Məlum sərəncamla bağlı fikirlərini ”Şərq”lə bölüşən qələm ustası, ”Ulduz” jurnalının baş redaktoru, şair Qulu Ağsəs yubileylərin üst-üstə düşməsinin qanunauyğun olduğunu dedi:**

- Cənab Prezidentin Xurşidbanu Natəvanın 190 illik yubileyinin keçirilməsiylə bağlı sərəncam imzalamasının ”Şuşa ili” ili eyni vaxta düşməsi təsadüfi sayılmaz. Bu, tamamilə təbii və qanunauyğundur.  Çünki Şuşa deyiləndə ağla gələn ilk isimlərdən biri də məhz Xan qızı Natəvandır, Natəvanın qəzəliyyatı, poeziyası və onun Qarabağ üçün, Şuşa üçün gördüyü işlərdir. Xurşidbanu Natəvan ən yaxşı lirik şairlərdən hesab edilir. 2 dildə yazıb - Azərbaycan türkcəsi və fars dilində. Onun poeziyası Azərbaycan ədəbiyyatının ”Qızıl Fondu”na daxildir. Amma bir məsələ var. Natəvanın bədii yaradıcılığından savayı başqa bir əsəri də var. Bu əsərin adı Şuşadır! Qarabağ hökmdarının sonuncu varisi Şuşa üçün çox böyük, lazımlı, faydalı, Qarabağ əhalisinin həyatını yaxşılaşdıracaq, yaşayışını yüngülləşdirəcək saysız-hesabsız xeyriyyə işləri görüb. Gördüyü işlər də Natəvanın əsərləridir. Bu da bir yaradıcılıqdır. Ona görə də Şuşa adıyla Natəvanın adının yanaşı çəkilməsi təsadüf sayılmaz. Şuşa ilə Natəvan arasında ruhanu bir bağlılıq olub tarixən. Mən belə hesab edirəm ki, Xan qızı dünyaya gələndən bu ikili arasında ruhi bağlılıq yaranlb. İndi bu ruhani bağlılıq həm də rəsmi bağlılığına çevrilir - rəsmiləşir. Bir yandan Şuşanın 270 illiyidir, bir yandan Natəvanın 190 illiyi. 2 yubileyin üst-üstə düşməsi çox gözəldir, möhtəşəmdir. Qarabağ, bütün Azərbaycan 2 bayramı birlikdə qeyd edir. Şuşaya Natəvanlı günlər, Natəvana da Şuşalı ”ömür” arzulayıram.

**Məlahət Rzayeva**

# Siqaret və içkilərin qiymәti bahalaşacaq



## Zərərli məhsulların istehlakının azaldılması məqsədilə qiymət artımına gedilməsi praktikası mövcuddur

**Azərbaycan ərazisinə gətirilən aksizli malların aksiz dərəcələrinin, ölkəyə idxal edilən spirtli içkilərin və tütün məhsullarının vergi rüsumlarının artırılması həmin məhsulların bahalaşmasına səbəb olacaq. Bu barədə Trend-ə iqtisadçı-ekspert Xalid Kərimli açıqlamasında deyib.**

"Siqaretlərdə min ədəd üçün aksiz vergisi əvvəlki 43 manatdan 46,5 manata qaldırılıb. Bu da bir qutu siqaretdə 35 qəpik artım deməkdir. Bu isə siqaretlərin markasından asılı olaraq 35,50 qəpik bahalaşmaya gətirib çıxaracaq. Elektron siqaret və qəlyanlara tətbiq edilən aksizlər də həmin məhsulların qiymətini bahalaşdıracaq. Bundan başqa spirtli içkilərin də qiymətində artım gözlənilir. Əvvəl 80 faizlik spirtin bir litrinə aksiz 5,20 qəpik idisə, hazırda 6 manatdır. Bu da spirtli içkilərin qiymətinin 1 manata qədər artmasına gətirib çıxaracaq", - X.Kərimli deyib.

Onun sözlərinə görə, dövlət tütün məhsulları və alkoqollu içkilərdən istifadəyə məhdudiyyət qoymaq məqsədilə aksiz dərəcəsini artırır.

Qeyd edək ki, Baş nazir Əli Əsədovun qərarı ilə Azərbaycan ərazisinə gətirilən aksizli malların aksiz dərəcələri artırılıb. Sənədə əsasən, denaturasiya olunmamış etil spirti (80 həcm faiz və ya çox spirt qatılığı ilə), həcm faizi 80-dən az qatılığı olan denaturatlaşdırılmamış etil spirtinin aksiz dərəcəsi 5,2 manatdan 6 manata qaldırılıb. Üzüm çaxırının və ya üzüm puçallarının distillə edilməsi nəticəsində alınan spirtli tinkturaların aksiz dərəcələri 7,2 manatdan 8 manata qədər, cin və ardıc tinkturası, araq, likörlər və digər spirtli içkilər üçün aksiz dərəcəsi isə 11,2 manatdan 12 manatadək artırılıb.

**İqtisadçı Fuad İbrahimov "Şərq"ə açıqlamasında qeyd etdi ki, zərərli məhsulların istehlakının azaldılması məqsədilə qiymət artımına gedilməsi praktikası mövcuddur:**

- Əhalinin böyük bir hissəsi, əsasən kişilər tütün məhsullarından çox istifadə edir, həmçinin spirtli içkilərdən də. Bu məhsulların ziyanlı olduğu da məlumdur. Tütün məmulatlarından istifadəyə dair qadağalar tətbiq edilsə də, azyaşlılara, yeniyetmələrə tütün məhsullarının satışı qadağan olsa da, bu qadağaların çox zaman pozulduğu da məlumdur. Praktikada belə bir yanaşma var, qiymət artımı tələbata təsir edir. Bu, geniş yayılmış bir alətdir. Azərbaycanda birinci dərəcəli məhsul çörək, un və un məmulatları hesab edilir, ancaq əhalinin müəyyən bir qismi üçün tütün birinci dərəcəli sinfinə aiddir. Ziyanlı məhsulların istehlakını azaltmaq məqsədilə bu cür təsir mexanizmlərindən istifadə edilir. Ümumilikdə isə aksiz dərəcələrinin artmasına kompleks yanaşma nöqteyi-nəzərindən baxıldıqda, burada iki nəticə əldə edildiyini görərik: aksiz dərəcəsinin artması qiymət artımına gətirib çıxarır ki, bu da öz növbəsində tələbatın azalmasına səbəb olur, paralel olaraq gəlir mənbəyi kimi daxilolmalar isə azalmır. Tələbat azalsa da, daxilolmalar azalmır. Öz səviyyəsində qalır, ya da daha çox mədaxil yaranır. Bu qaydada alətdən istifadə edilir.

Məlahət Rzayeva

---



**"Qaz, işıq pulunu hesablamaqda çətinlik çəkirəm, bu, nə limit məsələsidir?". Bunu deputat, Vətəndaş Həmrəyliyi Partiyasının sədri Sabir Rüstəmxanlı deyib. Deputat bildirib ki, Milli Məclis deputatlarının müraciətlərinə baxılmır:**

"Mən təqaüd məsələləri ilə bağlı Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə 8 məktub göndərmişəm, 1-nə də cavab

# "Bu, nə limit məsələsidir?"

## Deputat qaz, işıq pulunu hesablamaqda çətinlik çəkir

verməyib". Deputat Nazirlər Kabinetinin Milli Məclisin iclaslarının stenoqramını götürüb, qaldırılan problemlərə, səsləndirilən təkliflərə baxmasını istəyib: "Nazirlər Kabinetinin üzvləri rayonlara gedir, amma həmin rayonun deputatının xəbəri olmur. Kürdəki problemlər qalıb, işsizlik məsələsi bütün rayonlarda var. Neftçalada əhali balıqçılıqla məşğul olurdu, artıq bu, tam dayanıb. Hökumət xüsusi tədbirlər görməlidir".

S.Rüstəmxanlı kommunal xidmətlərin qiymətlərinin artırılmasından da danışıb, bunun yolverilməz olduğunu deyib: "Kommunal qiymətlər artırılır, buna yol verməK olmaz. Mən bu gün evdəki qaz, işıq pulunu hesablamaqda çətinlik çəkirəm. Bu, nə limit məsələsidir? Əhalini dövlətdən narazı salmaq olmaz".

**Deputat 2016-cı ildən Milli Məclisdə İnzibati Xətalar Məcəlləsinə 146 dəyişiklik edildiyini xatırladıb:** "Bunun əksəriyyəti cərimələrlə bağlıdır. Biz burada uşaq pulu məsələsini qaldırmışıq, amma hökumət buna baxmır. Bizdən pis vəziyyətdə olan qonşu ölkələrdə uşaq pulu verilir. Mədəniyyət sahəsində problemlər hamımızı narahat edir. Mədəniyyət müəssisələrinin bir çoxu köhnə nazirin vaxtında ixtisar olunub. Biz bunları necə bərpa edəcəyik?".

İsmayıl

---



# Gürcüstanda da Rusiya-Qərb qarşıdurması yaşanır

## Zurabişvili Ukrayna nümayəndəsini məqsədli şəkildə parlamentə gətirib

**Gürcüstan Prezidenti Salome Zurabişvilinin parlamentin iclas zalına Ukraynanın müvəqqəti nümayəndəsi ilə birlikdə daxil olması Kiyevə dəstək kimi qiymətləndirilib. Prezident çıxışından əvvəl zalda oturanlardan ayağa qalxmalarını xahiş edib və ardından zalda Ukrayna himni səsləndirilib.**

Himn zamanı o, Ukraynada çəkilən müharibə şəkillərini də monitor vasitəsilə təqdim edib. Prezident hakimiyyətin ona fəaliyyəti ilə bağlı məhdudiyyətlər qoyduğunu açıqlayıb. Onun beynəlxalq fəaliyyətinə məhdudiyyətlər qoyulduğunu deyərək bunu "anlaşılmaz" adlandırıb. Vurğulayıb ki, fevralın 26-da o, Avropanın bir sıra ölkəsinə işgüzar səfərlər etmək istəyib, lakin buna hökumət tərəfindən rədd cavabı alıb: "Ehtiyacın çox olduğu bir vaxtda prezidentin beynəlxalq fəaliyyətinə qoyulan məhdudiyyətlər başa düşülən deyil. 26 fevral 2022-ci ildə Paris, Brüssel, Berlin və Varşavaya işgüzar səfərlər etməyimə yazılı şəkildə rədd cavabı aldım. Mövcud vəziyyəti nəzərə alaraq bütün rəsmi formatları ləğv etmişdim. Belə vaxtlarda şəxsi əlaqələrimdən istifadə etməyi və iş səfərlərini şəxsi görüşlərə çevirməyi lazım bildim. Hesab edirəm ki, bu cür yanaşma və bu cür məhdudiyyətlər belə çətin regionda olan ölkəmiz üçün zərərlidir. Məhdudiyyətlərin zamanı deyil, əksinə, kimin gücü çatırsa, beynəlxalq müstəvidə mümkün qədər cəlb olunmalı, tərəfdaşlarımıza rahatlıq verməməliyik! Hesab edirəm ki, mənim qırx illik diplomatiya və strateji iş təcrübəm, bu müddət ərzində əldə etdiyim şəxsi əlaqələr, ölkəmizə onu itirməkdən daha faydalıdır". Zurabişvilinin çıxışı müxalifət deputatları tərəfindən alqışlarla qarşılanıb. Hakim partiyanın deputatlarından isə yalnız bir neçəsi prezidenti alqışlayıb. Baş nazir İrakli Qaribaşvili prezidentin yanına getməyib. "Gürcü arzusu" fraksiyasının sədri Mamuka Mdinaradze Prezident Salome Zurabişvilinin çıxışını tənqid edib: "Bu gün Gürcüstanda hibrid müharibəni, öz ölkəsinə qarşı hərəkət edən insanlar görürük, onlar sizin səsləndirdiyiniz məsələləri başqa cür yozacaqlar. Hörmətli nümayəndəni iclas zalına xəbər etmədən gətirməyiniz və Gürcüstan parlamentinə xəbər etmədən məktub yazmanız, məncə, bu, instituta hörmətsizlikdir".

**Politoloq Azər Qasımov "Şərq"ə deyib ki, Zurabişvilinin bu hərəkətini Qərbə dəstək, Rusiyanın işğalçı hərəkətinə etiraz kimi qəbul etmək üçün çox fikirləşməyə ehtiyac yoxdur. Analitikə görə, onun Qərbyönümlü olduğu məlumdur:** "Hökumətin isə rusyönümlü olduğu, İvanişvilinin nəzarətində olduğu da məlumdur. Bu qüvvələrin qarşıdurması Rusiya-Qərb gərginliyinin təzahürüdür. Zurabişvili Ukrayna nümayəndəsini məqsədli şəkildə parlamentə gətirib. Bu, Qərbin göstərişi də ola bilər. Məqsəd Gürcüstanda Rusiya əleyhinə olan qüvvələrin aktivləşməsini təşkil etməklə Moskvaya qarşı sanksiyalara Gürcüstanı da qoşmaqdır. Prezident-hökumət qarşıdurmasının böyüyəcəyini gözləmək lazım deyil. Gürcüstan Rusiyaya qarşı apardığı siyasətin acı nəticələrini 2008-ci ildə yaşayıb. Ukraynanın indi yaşadıqlarını onlar daha əvvəl görüblər. Ən əsası isə Qərbin oyunları ilə Rusiyaya qarşı çıxmağın hansı itkilərə səbəb olduğunu gürcülər çoxdan başa düşüblər. Hökumətin Zurabişvilini günahlandırması da bundan irəli gəlir. Gürcüstan da Ukrayna kimi bundan sonra Rusiyaya heç vaxt simpatiya duymayacaq. Amma təcrübə Gürcüstanı ehtiyatlı davranmağa məcbur edir. Rusiya Ukrayna bataqlığına batdıqca, hesab etmək olar ki, bunun əksini fikirləşənlərin sayı artacaq".

İsmayıl Qocayev

---

# Rus qadın səssiz qalmadı

## Marina Ovsyannikovanı qəhrəmana çevrdilər

**Rusiyanın "Birinci kanal"ının efirində gözlənilməz hadisə yaşanıb. "Vremya" xəbərlər proqramı zamanı telekanalın redaktoru Marina Ovsyannikova əlində müharibə əleyhinə şüarlar əks olunmuş plakatla efirə müdaxilə edib. Xanım əməkdaş "Müharibəni dayandırın. Təbliğata inanmayın. Burada sizə yalan danışırlar" yazılan plakatı bir neçə dəfə efirin canlı yayımında nümayiş etdirib. Hadisədən sonra Ovsyannikova saxlanılıb, barəsində araşdırma başladılıb.**

Marina Ovsyannikova bildirib ki, onun atası ukraynalı, anası isə rusdur: "Ukraynada baş verənlər cinayətdir. Rusiya aqressor ölkədir. Bu aqressiyaya görə məsuliyyət yalnız bir nəfərin üzərindədir - Vladimir Putin. Atam ukraynalı, anam rusdur. Onlar heç vaxt düşmən olmayıblar. Boynumdakı boyunbağı da Rusiyanın qardaş qırğınını dayandırmalı olduğunun simvoludur. Qardaş xalqlar barışa bilərlər. Təəssüf ki, son illər "Birinci kanal"da Kremlin təbliğatı ilə məşğul olmuşam. Buna görə çox utanıram. Televiziya ekranında yalan danışdığıma görə utanıram. Bütün bu hadisələr 2014-cü ildə başlayanda susduq. Kreml Navalnını zəhərləyəndə mitinq etmədik. Bu, qeyri-insani rejimi sadəcə müşahidə edirdik. Bizdən bütün dünya üz döndərib. Bundan sonra 10 nəsil də bu qardaş qırğınının xəcalətini çəkməli olacaq".

Telekanal redaktorunun etirazı Azərbaycan ictimaiyyətində, xüsusən media nümayəndələri arasında təqdirəlayiq hadisə kimi dəyərləndirilib.

**"525-ci qəzet"in baş redaktoru Rəşad Məcid bildirib ki, kanalın redaktoru Marina Ovsyannikovanın hərəkəti əsl mərdlik və cəsurluq nümunəsidir:** "Etirazın ən kreativ təzahürüdür. Rus xalqını və ziyalılarını qınaqdan qurtaran tarixi addımdır. Ekstremal situasiyada cəsarətli qərar qəbul etmək qəhrəmanlıqdan xas keyfiyyətdir. Marina Ovsyannikova bu addımıyla tarixə adını yazdı və qəhrəmana çevrildi".

**Tanınmış televiziya aparıcısı Turan İbrahimov da baş verən hadisəni ciddi etiraz adlandırıb:** "Bu cür inqilabi hadisələr hər şeyin tam nəzarət altında olduğuna inanılan, olmaması üçün müxtəlif, çox mərhələli texniki tədbirlər görülən vaxtlarda, bir andaca baş verir. Özünün bir nömrəli propaqanda platformasında, Putinin sifətinin ortasına, bax belə bir şapalaq ilişdirdilər. Qərb kəşfiyyatının gücünü, rus FSB-sininsə növbəti mif olduğunun sübuta yetirdilər".




*Azərbaycan ictimaiyyəti "Birinci kanal"ın redaktoruna təriflər yağdırdılar, fərqli düşünənlər də var*

**ReAL partiyasının sədr müavini Natiq Cəfərli də vurğulayıb ki, doğrudan da, indiki Rusiyada bu hərəkəti etmək böyük qəhrəmanlıqdır:** "O kadrları görən kimi 1968-ci il 25 avqustunda Moskvada, "Qızıl Meydan"da 7 nəfərin SSRİ qoşunlarının Praqaya soxulmasına etirazı yadıma düşdü, bu haqda ilk dəfə 1989-cu ildə oxumuşdum. Təsəvvür edin, totalitar SSRİ-də, "dəmir pərdənin" ən sərt olduğu dövrdə, məlumatsızlıq dönəmində 7 nəfər Lenin Mavzoleyi qarşısında qoşunların Praqaya soxulmasına, Çex xalqının azadlıq arzularının tanklarla əzilməsinə etiraz etmişdilər. Moskvanın göbəyində, "Sizin və Bizim azadlığımız üçün", yazılmış plakat qaldırmışdılar. Demək istədiyim odur ki, bu gün Kreml rejimi öz xalqına nə qədər zombiləşdirməyə çalışsa da, nə qədər güclü təbliğat aparmaq istəsə də, sosial şəbəkələri, interneti qapatsa da böyük intellektual potensiala malik Rusiya xalqı sonda müttəfiq tiraniyaya qarşı çıxaraq öz yolunu seçəcək. Bəli, bu yol bizim anladığımız demokratik yol olmayacaq. Zatən Rusiyanın altyapısı demokratiya üçün yararlı deyil, amma insan sifətli, sivil, mədəni ölkə ola bilərlər. Buna inanmaq istərdim, inanmaq istərdim ki, tarixdə solovyovlar, simonyanlar deyil də, məhz Mariya Ovsyannikova, onun kimi insanlar qalacaq."

**"Xalq Cəbhəsi" qəzetinin baş redaktoru Elçin Mirzəbəyli isə məsələyə fərqli prizmadan yanaşıb.** Baş redaktor deyib ki, Rusiyanın birinci kanalında baş verən olaya hərə öz baxış bucağından yanaşa bilər. Amma ortalıqda hər kəsin görə biləcəyi gerçəklər var: "Bu telekanal və digərləri illərlə bizə böhtan atıb, Qərbin rəzil transmilli mediası ilə birlikdə işğala, separatizmə haqq qazandırıb, Xocalıda və digər ərazilərimizdə ermənilərin amansız qətliamlarını, soyqırım və vandalizm aktlarını görməzdən gəlib. Gəncəyə, Bərdəyə, Tərtərə və digər yaşayış məntəqələrimizə atılan raketlərə, günahsız həmvətənlərimizin qətliamına göz yumub. Marina Ovsyannikova qəhrəman deyil, atası ukraynalı, anası rus olduğu üçün yalnız mənsub olduğu xalqların taleyini, gələcəyini düşünən birisidir. Əgər qəhrəman olsaydı, başımıza raketlər yağanda, günahsız körpələrimiz qətlə yetiriləndə səsini çıxarar, etiraz edərdi. Bu səbəbdən də öncə özümüzü düşünməliyik. Özlərinə, mənsub olduqları xalqların maraqlarına gələndə "qəhrəman" olanları yox!".

İsmayıl Qocayev

---

# Putin Ukraynanı məğlub edə bilməyəcək

## "Bundan sonra Rusiya daxilində məğlubiyyətdən doğan sarsıntılar başlayacaq"

**Ukrayna Prezident Aparatı rəhbərinin müşaviri Aleksey Arestoviç "Feyqin Live" kanalına müsahibə verib. O bildirib ki, Rusiya və Ukrayna arasında bir və yaxud iki həftə ərzində sülh razılaşması mümkündür: "Çox güman ki, mayın əvvəlində və bəlkə də daha tez sülh razılaşmasına nail ola bilərik. İki həftə və yaxud danışıqların daha bir raundundan sonra may ayının sonuna kimi razılığa gələ bilərik".**

Politoloq Zərdüşt Əlizadə tərəflər arasında gözlənilən sülh razılaşmasından "Şərq"ə danışarkən qeyd edib ki, Rusiyanın burda əsas şərti Ukraynanın Donetsk və Luqansk inzibati ərazilərini itirməsi və Ukrayna ordusunun silahsızlaşdırılması ola bilər:

"Ukrayna əhalisi, xüsusən də döyüşən ordu bu şərtləri qəbul etməz. İndi Putinin qarşısında



iki yol qalır. O ya rus ordusunun indiyə qədər tutduğu torpaqları özündə saxlamaqla uzunmüddətli bir atəşkəsə nail olmaq üçün danışıqlara başlamalıdır, ya da daha geniş miqyaslı hücumla Ukraynanı məğlub etməyə cəhd göstərməlidir. Hər iki halda təbii ki, sanksiyalarla Rusiya iqtisadiyyatı çökəcək".

**Z.Əlizadənin fikrincə, hazırda Rusiya sülhə doğru addım atmaqdan daha çox Ukraynaya hücum etmək niyyətində görünür:**

"Hətta ola bilsin ki, bu hücumda hazırda Qarabağ ərazisində yerləşdirilmiş iki min rus sülhməramlısı da qoşulsun. Əgər belə olsa, müharibənin daha şiddətli bir mərhələsi başlayacaq".

Politoloqun qənaətincə, Ukrayna xalqının əzmi çox möhkəmdir və Putin də Ukraynanı məğlub edib istədiyinə nail ola bilməyəcək: "Bundan sonra da Rusiya daxilində məğlubiyyətdən doğan sarsıntılar başlayacaq".

Günəş Mərd

Azərbaycan Respublikasının
Medianın İnkişafı Agentliyi

## İşğaldan azad olunmuş ərazilərə “Böyük Qayıdış”

# Yollardan başlayır...

## Dövlət Böyük Qayıdışı ən yüksək səviyyədə reallaşdıracaq



**İşğaldan azad edilmiş ərazilərdə bərpa və quruculuq işləri davam etməkdədir. Quruculuq prosesinə yerli müəssisələr və qurumlarla yanaşı müxtəlif xarici şirkətlər də cəlb olunub. Bərpa və yenidənqurma işlərində ən müasir və innovativ texnologiyalardan istifadə edilir, ”ağıllı şəhər” və ”ağıllı kənd” konsepsiyaları tətbiq olunur.**

Füzulidə beynəlxalq aeroportun tikilməsinə start verilib. Zəngilanda, Laçın və Kəlbəcərdə də beynəlxalq hava limanları inşa ediləcək. Azad olunmuş ərazilərdə təhlükəsizliklə bağlı məsələlərin həll olunması ilə yanaşı, ilkin infrastruktur və sosial xidmətlərin təmin edilməsi ilə bağlı vəzifələr də icra olunur. Dövlət tərəfindən yol infrastrukturu qurulur. Qurumlar, ilk növbədə kommunal xidmət göstərən qurumların yerli bölmələri öz sahələri üzrə fəal işə başlayıblar. İşğaldan azad olunmuş torpaqların kifayət qədər böyük ərazini əhatə etməsi nəzərə alınaraq, burada iqtisadiyyatın bərpası çoxşaxəli yanaşmaya söykənən vahid konseptual dövlət proqramı əsasında həyata keçirilir. Darmadağın edilmiş, viran olunmuş, yandırılmış torpaqlarda yenidən məskunlaşma və qayıdış qarşısındayıq. İşğaldan azad edilmiş ərazilərimizdə ötən bir il ərsində çox mühüm işlər həyata keçirilib. Çoxsaylı infrastruktur layihələri icra olunub, körpülər, yollar, stansiyalar tikilib, yaşayış massivləri salınıb, hava limanları inşa edilib. Bu prosesə yerli müəssisələr və qurumlarla yanaşı müxtəlif xarici şirkətlər də dəvət alıb. Azərbaycan Prezidenti İlham Əliyev bərpa və yenidənqurma işlərində ən müasir və innovativ texnologiyalardan istifadə olunacağını, ”ağıllı şəhər” və ”ağıllı kənd” konsepsiyaları tətbiq olunacağını bildirib. Hazırda azad olunmuş ərazilərdə təhlükəsizliklə bağlı məsələlərin həll olunması ilə yanaşı, ilkin infrastruktur və sosial xidmətlərin təmin edilməsi ilə bağlı vəzifələr icra olunur. Dövlət tərəfindən yol infrastrukturu qurulur, dövlət qurumları, ilk növbədə kommunal xidmət göstərən qurumların yerli bölmələri öz sahələri üzrə fəal işə başlayıblar. İşğaldan azad olunmuş torpaqların kifayət qədər böyük ərazini əhatə etməsi nəzərə alınaraq, burada iqtisadiyyatın bərpası çoxşaxəli yanaşmaya söykənən vahid konseptual dövlət proqramı əsasında həyata keçirilir. Xatırladaq ki, dövlət başçısı İlham Əliyev 2021-ci ildə işğaldan azad edilmiş ərazilərə 32 dəfə səfər edib. Ölkə rəhbərinin hər səfəri Böyük Qayıdışa doğru atılan addımdır. Cənab İlham Əliyevin bu ərazilərdə açılışında və təməlqoyma mərasimlərində iştirak etdiyi obyektlərin say tərkibinə diqqət yetirsək, görülən işlərin yüksək səviyyədə olduğunu böyük əminliklə qeyd edə bilərik. İlk gündən infrastruktur layihələrinin icrası prioritet oldu. İşğaldan azad edilmiş ərazilərdə 15 fərqli layihə üzrə 1400 kilometrdən artıq uzunluqda yolların, habelə telekommunikasiya şəbəkələrinin qurulması və rabitə xidmətlərinin təşkili üzrə işlər də sürətlə davam edir. Bu ərazilərdə elektrik enerjisinin təminatı ilə bağlı ötən il ərzində lazımi avadanlıqların quraşdırılması, yarımstansiyaların yenidən qurulması və bərpası, elektrik xətlərinin çəkilişi istiqamətində xeyli işlər görülüb. Şuşa, Füzuli, Kəlbəcər, Cəbrayıl, Zəngilan və Qubadlıda yarımstansiyaların tikintisi qısa müddətdə başa çatdırılaraq istifadəyə verilib. Bütün bu işləri Azərbaycan dövləti öz daxili imkanlarımız hesabına həyata keçirir. Hər zaman bir-birinə dəstək olan Azərbaycan və Türkiyənin Zəngilanda birgə investisiya layihəsinə start vermələri də təqdirəlayiqdir. Məlum olduğu kimi, ötən il oktyabrın 26-da Füzuli Beynəlxalq Hava Limanının açılışında birgə iştirakdan sonra Azərbaycan və Türkiyə prezidentləri Zəngilanda ”ağıllı kənd” layihəsi çərçivəsində Ağalı kəndində görülən işlərlə tanışlıqdan sonra ”Dost Aqropark”ın təməlini qoymuşdular. Türk və azərbaycanlı sərmayədarlar tərəfindən Zəngilanda həyata keçiriləcək ”Dost Aqropark” layihəsi üç mərhələdə icra olunacaq. Layihənin birinci mərhələsində inzibati binalar, qapalı və yarıaçıq heyvandarlıq kompleksləri, sosial obyektlər, kafe, kinoteatr, istirahət zonası, xidməti heyətin qalması üçün binalar tikiləcək. Kompleksdəki otlaq sahələrində 4 min baş cins qaramalın yetişdirilməsi, əkinçilik məhsulları istehsalı və digər fəaliyyətlər də həyata keçiriləcək. Bütün bunlar Azərbaycanın və Türkiyənin qida təhlükəsizliyinə töhfə verəcək, bölgənin əkinçilik və heyvandarlıq məhsullarının beynəlxalq bazarlara çıxarılmasına imkan yaradacaq.

Artıq Böyük Qayıdışla bağlı sorğuların tamamlandığı deyilir. Nazirlər Kabinetinin 2021-ci il üçün hesabatında qeyd olunub ki, respublikanın 63 şəhər və rayonu ərazisində yaşayan 617.5 min nəfərdən ibarət 159.9 min məcburi köçkün ailəsi arasında Böyük Qayıdışın reallaşması ilə əlaqədar sorğular həyata keçirilib. Ölkə Prezidenti Azərbaycan Gəncləri Gününün 25 illiyi münasibətilə keçirilən Gənclər Forumunda bir məqamı xüsusi qeyd etdi. Vurğuladı ki, onun bölgələrə səfərləri çərçivəsində həmin bölgələrdən olan nümayəndələrlə görüşləri olduqca mühümdür. Dövlət başçısı bəyan etdi ki, onlara da planlar təqdim edilib və birlikdə müzakirə edilir: ”Onlar öz şəhərlərini, kəndlərini necə görmək istəyirlər? Bu, mütləq nəzərə alınmalıdır. Eyni zamanda, müasir tələblər nəzərə alınmalıdır, memarlıq nəzərə alınmalıdır. Biz, əlbəttə ki, memarlıq baxımından gözəl şəhərlər yaratmalıyıq. Burada gənclərin yaradıcı missiyası çox qəbulolunandır. Əminəm ki, gənclər həm real layihələrin icrasında, eyni zamanda, yeni layihələrin təqdim edilməsində fəal olacaqlar. Əsas olan budur ki, soydaşlarımızın Böyük Qayıdışı təmin edilsin və tezliklə o sevinci yaşasınlar”. Dövlət başçısı qarşıya bu hədəfi qoyur ki, hər şey əsaslı olmalıdır. Həm tez edək, eyni zamanda, tələskənliyə yol verməyək. Çünki bu insanlar 30 il ağır vəziyyətdə yaşayırdılar. Biz elə şərait yaratmalıyıq ki, onlar bundan sonra rahat yaşasınlar.

***"Baş redaktor deyib ki, qayıdış prosesində bölgə əhalisinin fikrinin, mövqeyinin öyrənilməsi önəmli və təqdirəlayiqdir"***

**Zəngilanlı jurnalist, ”avtosfer.az” saytının baş redaktoru Elməddin Muradlı ”Şərq”ə bildirib ki, Böyük Qayıdış proqramı ilə bağlı dövlət tərəfindən ən yüksək səviyyədə tədbirlər görülür. Baş redaktor deyib ki, qayıdış prosesində bölgə əhalisinin fikrinin, mövqeyinin öyrənilməsi önəmli və təqdirəlayiqdir:** ”Bu, özözlüyündə Böyük Qayıdışın səmərəli olacağından xəbər verir. Əlbəttə, yurdu 30 ilə yaxın işğal altında qalmış vətəndaşlarımızın hamısı öz torpaqlarına qayıtmaq arzusu ilə yaşayır. Bunun tez zamanda baş verməsini istəyirlər. Bəziləri nostalji hisslərlə tərk etdiyi torpağın, ev-eşiyin olduğu kimi ona verilməsini istəyir. İnsanların hisslərini başa düşürük və təbii qarşılayırıq.

Mümkün qədər əhalinin əvvəllər yaşadıqları yerlərdə məskunlaşmanı təşkil etmək daha məqsədəuyğun olar. Bildiyimə görə, sakinlər üçün qəsəbə tipli kəndlər salınacaq. Bizim camaat qurub-yaradandır, üç-beş ilə kəndləri, qəsəbələri özləri istədikləri formada quracaqlar. Yüngül konstruksiyalı evlər tikilsə belə vətəndaşların təklifləri, istəkləri nəzərə alınmalıdır”.

**E.Muradlı vurğulayıb ki, ilk növbədə yolların salınmasına diqqət yetirmək lazımdır:** ”Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyi digər qurumların nəzarəti altında çox ciddi işlər görür. Hələ Qayıdış başlamayıb, amma ucqar kəndlərdə belə yol infrastrukturuna xüsusi diqqət göstərilir. Çünki bu, cənab Prezidentin tapşırığıdır. Böyük Qayıdış yoldan başlayacaq və yollar vasitəsi ilə həyata keçiriləcək. Yollar yüksək səviyyədə olduqdan sonra digər tikililər tədricən formalaşacaq. Ümumən görülən işlərə dövlət nəzarəti zəruridir. Təəssüflər olsun ki, ara-sıra neqativ məlumatlara rast gəlirik. Xəbər yayılır ki, Ağalı kəndində bəzi işçilər incidilir, əmək haqları vaxtında verilmir, kəsilir və s. Bunlara son qoymaq lazımdır”.

**İsmayıl Qocayev**

**Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə çap olunub**

# Bir həkim yüzlərlə, minlərlə insan deməkdir

## Günel Məmmədova bu adın, peşənin şərəfini, nüfuzunu həmişə uca tutub



**Tibb sahəsi və həkim peşəsinin tarixi çox qədimlərə gedib çıxır. Həkimlərin bəşəriyyət üçün ən vacib peşə sahibləri olduqlarını əminliklə söyləyə bilərik. Doğuşdan ölümə qədər bir insanın ağrı-acılarını öz ağrı-acısı kimi qəbul edən, dərdinə məlhəm olan, ona şəfqət bəxş edən ağxalatlı qəhrəmanlardır.**

Bir həkim peşəsi seçimi yalnız öyrənmək üçün çox vaxt itirildiyinə görə çətin deyil. Bu peşə həm də ona görə mürəkkəbdir ki, aşırı məsuliyyət, qətiyyət, mərhəmət və səbir tələb edir. ”Hippokrat andı” içmiş əsl həkim insan kədərinə biganə qala bilməz, çünki əsl həkimin vəzifəsi xəstələrin əziyyətini yüngülləşdirmək, onları ölümdən xilas etməkdir. Ən başlıcası, xəstənin ovqatından, onun xəstəliyinin ağırlıq dərəcəsindən asılı olmayaraq həkim bütün xəstələrə eyni dərəcədə şəfqət və qayğı hissi ilə yanaşmalıdır. Olduqca xırda səbəbdən ölümlə nəticələnən onlarla fakt və hadisə eşitmişik, müşahidə etmişik. Həkimlər isə gündə yüzlərlə, minlərlə insanı bu cür gözlənilən və gözlənilməyən ölümün ”pəncəsindən alır”. Ona görə də bir həkim yüzlərlə, minlərlə insan deməkdir.

Heç kimə sirr deyil ki, çox zaman həkimlər planlarını və maraqlarını qurban verərək, sağlamlıqlarını təhlükə altına ataraq, insanlara kömək əli uzadırlar. Dünyanın baş ağrısına çevrilmiş koronavirus pandemiyasının ən qaynar çağlarında və 44 günlük Vətən müharibəsində ağxalatlı qəhrəmanlarımızın necə tarixlər, dastanlar yazdıqlarının şahidi olduq.

Müasir dövrümüzdə vaxtaşırı olaraq dövri mətbuatda və sosial şəbəkələrdə ”uzman doktor” ifadəsinə rast gəlirik. İndi sizə təqdim edəcəyimiz uzman doktor Günel Məmmədova bu adın, peşənin şərəfini, nüfuzunu hər zaman uca tutur.

### Kimliyi və təhsili barədə...

Günel Müsəddiq qızı Məmmədova 1989-cu il aprel ayının 19-da Bakı şəhərində ziyalı ailəsində dünyaya göz açıb. 1996-cı ildə Bakı şəhərində 1 saylı ingilis dili təmayüllü məktəb-lisey kompleksinə qəbul olunub, 2007-ci ildə sözügedən təhsil müəssisəsini fərqlənmə ilə bitirib. 2007-ci ildə yüksək bal toplayaraq Azərbaycan Tibb Universitetinin II Müalicə-profilaktika fakültəsinə ödənişsiz əsaslarla qəbul olunub. 2007-ci ildə Azərbaycan Tibb Universitetinin tələbə-gənclər təşkilatına üzv olub. 2009-cu ildə Tələbə Cəmiyyəti nəzdində ”Miokard infarktında biokimyəvi markerlərin rolu” adlı tələbə elmi işini ingilis dilində müdafiə edib və birincilik qazanıb.

### Türkiyədə təhsil...

2010-cu ildə universitetlərarası mübadilə proqramı çərçivəsində İstanbul Universitetinin Cərrahpaşa Tibb fakültəsində təhsil alma haqqına nail olub. 2014-cü ildə İstanbul Universiteti Cərrahpaşa Tibb fakültəsini fərqlənmə ilə bitirib. Daha sonra eyni Universitetin Ümumi cərrahiyyə şöbəsində uzmanlıq təhsilinə başlayıb. 2017-ci ildə universitetlərarası mübadilə proqramı ilə Mərmərə Universiteti Ümumi cərrahiyyə şöbəsində uzmanlıq təhsilini tamamlayıb və ”Operatör Doktor” adına layiq görülüb.

### Ailəsi...

Ailəlidir. 1 qız övladı var. Həyat yoldaşı Op.Dr. Toğrul Cavadov, İstanbulda beyin və sinir cərrahiyyəsi uzmanı olaraq çalışmaqdadır. 44 günlük Vətən müharibəsi dönəmində maddi və professional olaraq Azərbaycan xalqına dəstək göstərib. Hazırda şəhid ailələrinin övladlarının təhsilinə dəstək məqsədi ilə ”Şəhid övladlarına təhsil dəstəyi dərnəyi” başqanı olaraq, yüzlərlə ailəyə təhsil dəstəyinin verilməsinə vasitəçi olmaqdadır.

### Beynəlxalq qurultay və simpoziumlarda iştirakı...

10-12 may 2012-ci ildə 23-cü Beynəlxalq tibb tələbələri qurultayında ”Tələbələrin ictimai-sosial vəziyyəti” mövzusunda çıxış edib. 11-12 iyun 2013-cu ildə 25-ci ”Türk-alman Gastroenteroloji ve Hepatoloji” qurultayına qatılıb. 2-5 noyabr 2017-ci ildə tibbi-cərrahi endokrinoloji məzuniyyət sonrası ”eğitim kursu”na qatılıb və buranı müvəffəqiyyətlə tamamlayıb. 6-7 noyabr 2017-ci ildə ”Temel Eğitim ve Uyum” kursuna qatılıb və bu kursu da uğurla başa vurub. 8 sentyabr 2018-ci ildə ”Temel Cerrahi Eğitim” kursuna qatılıb, kursu müvəffəqiyyətlə tamamlayıb, sertifikata layiq görülüb. 8-9 mart 2019-cu ildə ”VII. International Onco-Surgery Days 2019” simpoziumunda iştirak edib. 15-16 fevral 2019-cu ildə ”1.Ulusal Cerrahi Onkoloji” simpoziumuna qatılıb. 26 may 2019-cu il tarixində ”Level III SENUS BREAST ULTRASOUND WORKSHOP MASTERKLAS” proqramını uğurla başa vurub və sertifikat alıb. 25-28 noyabr 2019-cu ildə ”Temel Cerrahi eğitim-II” kursuna qatılıb və kursu müvəffəqiyyətlə tamamlayıb. 14 dekabr 2019-cu ildə ”Türk Cərrahi dərnəyi”nin nəzəri və donuzlar üzərində aparılan ”Perkutan endoskopik Gastrostomi” (PEG) proqramını uğurla başa vuraraq sertifikatla təltif olunub. 11-13 iyun 2021-ci ildə Türkiyə ”ERAS” dərnəyinin düzənlədiyi qurultaya qatılıb. 1-3 oktyabr 2021-ci ildə 19. ”Medikal-Cerrahi endokrinoloji Mezuniyet Sonrası eğitim” kursuna qatılıb.

15-16 oktyabr 2021-ci ildə ”Clinical Practice Symposium: Discuss Your Breast Cancer Case” simpoziumuna qatılıb. 30 noyabr-4 dekabr tarixləri arasında ”I.Uluslararası Türk Kolorektal Cerrahi” qurultayına qatılıb. İngilis dilində ”The Surgical Treatment of Splenic Flexure Colon Cancer: Segmental Resection or Extended Left Colectomy” elmi çalışması ilə çıxış edib. Sözügedən çalışma ”Journal of European Surgery”də yayımlanıb. Eyni qurultayda ”Sağ ve sol kolon kanserlerinde tümör depositlerinin görülme sıklığı ve onkolojik sonuçlara etkisi” və ”Kolon kanserlerinde mikrosatellitinstabilite (MSİ) durumunun tümör lokalizasyonu ile ilişkisi ve prognoz üzerine etkisi” elmi məruzələri ilə çıxış edib. ”Kolon kanserlerinde tümör depoziti varlığının lokalizasyonla ilişkisi, tümör histopatolojisi ve prognoza etkisi” başlığı altında diplom işi ilə ”Tümör depozitlerinin sağ ve sol kolon kanserlerinde prognostik önemi”ni dünya elmi ədəbiyyatında ilk dəfə olaraq vurğulayıb.



***Türkiyənin Səhiyyə naziri Fahrettin Koca da həmyerlimizi peşəsinə verdiyi dəyərdən dolayı təbrik edib***

### Üzv olduğu dərnəklər

Üzv olduğu dərnəklərə isə ”American College of Surgeons”, ”The American Society of Breast Surgeons”, ”American Thyroid Association”, ”European Society for Medical Oncology”, ”Breast Health Working Group”, ”Türk Tabip Odası”, ”Türk Cerrahi Derneği”, ”Türk Kolon ve Rektum Cerrahi Derneği”, ”ERAS Türkiye Derneği”, ”Endokrinolojide Diyalog Derneği”, ”SENATURK Senoloji Akademisi”, ”Cerrahi Onkoloji Derneği” daxildir.

### Dərs aldığı professorlar

Cərrahi təhsili müddətində Türkiyənin öndər cərrahlarından Prof.Dr. Şevket Cumhur Yeğen, Prof.Dr. Bahadır Güllüoğlu, Prof.Dr. Atilla Soran, Prof.Dr. Vahit Özmen, Prof.Dr. Yeşim Erbil, Prof.Dr. Abut Kebudi, Prof.Dr. Fadıl Ayan, Prof.Dr. Abdullah Sonsuz, Prof.Dr. Mustafa Taşkın və b. dərs alıb, elmi, nəzəri və praktiki təhsilini uğurla başa vurub.

### Türkiyə Səhiyyə nazirinin Günel Məmmədova haqqında fikirləri...

Türkiyə Səhiyyə Naziri Dr. Fahrettin Koca Günel Məmmədovaya ətraflı təbrik məktubu yazıb. Məktubun mətnini təqdim edirik:

”Hörmətli həkim dostum Günel Məmmədova, çətin günlərdə həkim kimi çalışan və digər yandan öz peşəsinin tələblərini yerinə yetirməyə cəhd edərək daha yaxşı şəraitdə tibbi xidmət göstərməyi düşünən, bütün dostlarıma və Sizə səmimi salamlarımı, sayğılarımı bildirirəm. Biz bu peşəni layiqincə şərəfləndirmək üçün hər cür səydən istifadə edirik.

Bildiyiniz kimi, pandemiya geniş mübarizə tələb edən xəstəliyin fəsadlarından başqa bütün cəmiyyətləri, xüsusən də cəmiyyətlərin sosial psixologiyasını və iqtisadiyyatını bir çox cəhətdən sarsıtdı. Bu müddət ərzində peşəkar bir qrup olaraq ən ağır fədakarlıqlar edən, cəmiyyətlərin rəğbətini və hörmətini qazanan biz olduq.

Pandemiya göstərdi ki, həkimlər və bütün səhiyyə işçiləri ölümlə həyat arasındakı sərhəddə bəşəriyyətin tərəfində unikal səy göstərirlər. Biz səhiyyə işçiləri olaraq bizi və unikal həkim peşəsini tərənnüm edən performansı nümayiş etdirdik. Peşəkar kimliyimizi öz yerinə qoyan komanda ruhu ilə hərəkət etdik, lakin hər şeydən əvvəl fərdiliyimizdir. Hesab edirəm ki, bu ruhu qoruyub saxlamaq həmişə vacibdir. Komandanın birləşməsində həkimlərin rolunu danmaq olmaz. Hamımız bilirik ki, bəzi hallarda tibbi müdaxilə musiqi harmoniyasını tələb edir.

Bu gün professorlarımızdan tutmuş tibb tələbələrinə qədər bir çox insan təbabətin ləyaqətini itirdiyini bildirir. Amma bunu da unutmaq olmaz: Tarixi bəşəriyyət qədər qədim olan tibb və hələ də cəmiyyətin qiymətli şəxsiyyəti olan həkim öz dəyərini itirmədiyi üçün bu ləyaqət itkisi müvəqqəti xarakter daşıyır. Ölümlə ölüm, xəstəlik və sağlamlıq arasında qalan insan həkimə və tibb elminə layiqincə hörmət göstərəcək.

Yalnız təhsillə cəmiyyətdə bizə status qazandıran peşələrdən biri də tibdir. Biridir deyirəm, amma etiraf edim ki, ikincisini bilmirəm. Bu status bizi bəzi konvensiyalarla məhdudlaşdırır. Məsələn, hüquq və tələblərimizlə bağlı inkişaf etdirəcəyimiz dil, münasibət tərzi peşənin təbiətinə uyğun olmalıdır. Peşənin bu xüsusiyyətinə, şübhəsiz ki, xəstələrə qulluq daxildir. Çünki hər kəs bilir ki, baxımsız qalan xəstə, tərəflərindən asılı olmayaraq, həlli axtarılan problemə və üzərinə mesaj verilən şəxsə görə obyektivləşdirilib. Xəstə bilir. Biz həkimlər olaraq xəstənin bu vasitəçiliyindən çəkinməliyik. Bu, bir həmkar kimi mənim fikrimdir. Hörmətli həkim dostum!

Bilirəm ki, indiki şəraitdə ölkəmizdə tiblə məşğul olmağın çətin tərəfləri var. Problemlərin öhdəsindən gəlmək çətin deyil, asanlıqla aradan qaldırıldığına və lazımi səylərin sərf edildiyinə inanmanızı istəyirəm.

Əsas məqsədlərimiz; iqtisadi cəhətdən ədalətli bir tənzimləmə, səhv iddiaların həkimlər üçün təhlükə olmasının aradan qaldırılması, artan zorakılığa qarşı daha yüksək maneə törədən hüquqi çərçivə və həkimlər təqaüdə çıxanda məhkəmə üzvləri ilə oxşar hüquqlara malik olmalıdır.

Hökumətimizin sizin üçün ən yaxşısını etməkdə qətiyyətli olduğuna əmin olun. Qarşıdan gələn 14 Mart Tibb Günümüzü ürəkdən təbrik edirəm. Hər birinizə peşənizdə və müəssisənizdə xoşbəxtlik arzulayıram”.

Bu çətin və şərəfli fəaliyyətində tükənməz uğurlar arzulayırıq. Günel xanıma çətin və şərəfli fəaliyyətində tükənməz uğurlar arzulayırıq. Gərgin əməyi sayəsində Türkiyə səhiyyə sisteminə və ümumilikdə tibb elminə böyük töhfələr verməsini diləyirik.

**Ayyət Əhməd**

# Faciələr artıb

## Yol qəzaları iqtisadiyyatımıza da ciddi ziyan vurur



**2020-ci illə müqayisədə 2021-ci ildə yol-nəqliyyat hadisələrinin sayı çoxluq təşkil edib.**

Bunu Baş Prokurorluğun Daxili işlər orqanlarının istintaq, təhqiqat və əməliyyat-axtarış fəaliyyətində qanunların icrasına nəzarət idarəsinin rəisi Natiq Abdullayev deyib.

O bildirib ki, ötən il respublika yollarında 1649 yol qəzası qeydə alınıb.

**Yol-nəqliyyat hadisələrinin sayının artması ilə bağlı "Şərq"ə danışan nəqliyyat üzrə ekspert Eldəniz Cəfərov əsas səbəbinin sürücü məsuliyyətsizliyi olduğunu vurğulayıb:**

"Təəssüf ki, Azərbaycanda yol-nəqliyyat hadislərinin sayı azalmaq əvəzinə, artır. Bu qəzalara əsasən, biləərək edilən qayda pozuntuları səbəb olur.

Əlavə olaraq, yol infrastruktrunun tam olmaması, yolların qaranlıq olması da bu səbəblərə aiddir. Bununla yanaşı, sürücülərin spirtli içki və narkotik vasitələr qəbul edərək avtomobil idarə etməsi də bu qəbildəndir. Bakıda spirtli içki qəbul edərək maşın sürənlərin sayı azdır. Paytaxtda dövlət yol polisi belə hallarla çox yaxşı mübarizə aparır. Bu tendensiyaya daha çox bölgələrdə rast gəlinir. Nəticədə bütün bunlar yol nəqliyyat hadisələrinin sayının artmasına gətirib çıxarır.

***Təəssüf ki, qəza hadisələrinin əksəriyyəti həm də yol infrastrukturunun doğru, düzgün qurulmamasından qaynaqlanır***

**Ekspert eyni zamanda bildirib ki, mənfi tendensiyanın artmasında dövlət qurumlarının da rolu var:**

"Yol-nəqliyyat hadisələri təkcə insanların həyatını itirməsinə səbəb olmur. İqtisadiyyata da ciddi ziyan vurur. Ona görə biz ölkə olaraq belə hadisələrin sayını azaltmağı qarşımıza məqsəd qoymalıyıq. Təəssüf ki, bəzi məmurların səhlənkarlığı ucbatından belə halların sayı artır.

Bakı şəhərində yol infrastrukturunun qurulmasına cavabdeh olan qurumlar qaş düzəldən yerdə, göz çıxarırlar. Məsələn, ötən il Əhmədli qəsəbəsi, S.Ə.Şirvani küçəsində dövlət qurumu yolu düzəltmək yerinə gətirib beton piltələr düzüb. Bundan sonra həmin ərazidə onlarla qəza baş verib. İnsanlara külli miqdarda ziyan dəyib.

Ümumiyyətlə, abadlaşdırma işləri yarımçıq görülür. Dillər əzbəri olan Bəsti Bağırova küçəsində də yolların işıqlandırılması tam həyata keçirilməyib, kanalizasiya qapaqları hər yerdə qoyulmayıb. Hər şey yarımçıqdır. Qəzalar sürücü və piyadaların diqqətsizliyi və qayda pozuntusu ilə yanaşı, bu səbəblərdən də baş verir. Bakıda yol tikinti işləri ilə konkret bir qurum məşğul olmalıdır. Bu işdə Bakı Şəhər İcra Hakimiyyəti birbaşa iştirak etməli, məsləhətləşmələr aparılmalıdır".

**Sənan İsmayıl**

## Proses təxirə salındı

### Afət Fərmanqızı Flora Kərimova ilə olan məhkəməyə gəlmədi



**Xalq artisti Flora Kərimovanın müğənni Afət Fərmanqızı barəsində xüsusi ittiham qaydasında verdiyi şikayətlə bağlı məhkəmə prosesi başlayıb.**

APA-nın xəbərinə görə, Binəqədi Rayon Məhkəməsində hakim Mahirə Kərimovanın sədrliyi ilə keçirilən prosesdə xüsusi ittihamçı - Xalq artisti Flora Kərimova və vəkili, həmçinin Afət Fərmanqızının vəkili və nümayəndəsi iştirak edib. A.Fərmanqızının vəkili məhkəmədə çıxış edərək bildirib ki, müdafiə etdiyi şəxsin yaşayış ünvanı dəyişdiyi üçün məhkəmənin göndərdiyi bildirişi əldə edə bilməyib. Müdafiəçi, həmçinin işə yeni cəlb olunduğu üçün məhkəmədən hazırlıq iclasını təxirə salmağı xahiş edib. Məhkəmə martın 28-nə təxirə salınıb.

*Qeyd edək ki, Xalq artisti Flora Kərimova müğənni Afət Fərmanqızını onu təhqir etdiyi üçün Cinayət Məcəlləsinin 147-ci (böhtan) maddəsi ilə ittiham olunmasını tələb edir.*


**Elan**

Qərbi Kaspi Universiteti tərəfindən 2019-cu ildə Abbaslı Azad Polad oğluna verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

Rəsulova Fərəh Fətulla qızının adına verilmiş Nissan Micra - 99 XR 074 seriyalı avtomobilin texniki pasportu itdiyi üçün etibarsız sayılır.

Məmmədov Vəli Dadaş oğlunun adına verilmiş Veteran vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

Səbail Rayon İcra Hakimiyyəti başçısının 1785 №-li, 19 sentyabr 1996-cı il tarixli vətəndaş Beqov Tofiq Ramazanoviçə ayrılmış, Badamdar qəsəbəsi, "Köhnə bağlar" küçəsi 38 №-li, 235 kv.m torpaq sahəsinin Səbail RİHB-nin Badamdar qəsəbə nümayəndəliyi tərəfindən tərtib edilmiş yerləşmə cizgisi itdiyi üçün etibarsız sayılır.


# Müharibə ticarətdə problemlər yaradıb

## Tikinti materiallarının bahalaşması gözlənilən idi

**Son iki həftə ərzində tikinti materialları bazarında qiymətlərdə dəyişikliklər müşahidə olunur. Hətta şirkətlər belə behləri geri qaytarır.**

Qiymətlər daha çox ölkəyə Rusiya və Ukraynadan idxal olunmuş bir sıra məhsullarda özünü göstərir. Rusiyanın müharibə səbəbindən bəzi məhsulların ixracına qoyduğu qadağa Azərbaycanda tikinti materialları bazarında qiymətləri bahalaşdırıb.

İqtisadçı-ekspert Nazim Bəydəmirli "Şərq"ə açıqlamasında bildirib ki, Azərbaycan müxtəlif materialların idxalından asılı ölkədir:

"Təbii ki, Rusiya-Ukrayna müharibəsi ciddi dağıntılardan əlavə, xarici ticarətdə problem yaradır. Həmçinin həlli lazım olan logistik məsələlər mövcuddur. Müxtəlif qadağalar olur. Bir neçə gün əvvəl Rusiya Federasiyasının Nazirlər Kabineti 200 adda məhsulun ixracını əngəlləyib. Eyni zamanda



Qaradəniz hövzəsindən bir çox materiallar Gürcüstan vasitəsilə də gəlirdi. Orada artıq gediş-gəliş problemi olduğuna görə, logistik şirkətlər həm qiymətləri bahalaşdırırlar, həm də sığorta haqları artır.

Bu mənada müharibənin bir an öncə durdurulması vacibdir. Savaşdan çıxarılan dərs ondan ibarətdir ki, Azərbaycan hökuməti öz sahibkarlarını və daxili bazarı nəzərə alaraq ilk növbədə istehsalı stimullaşdırmalıdır. Hansı məhsulların ölkəyə daxil olmasından asılıyıqsa, bu idxalı əvəzləmək üçün addımlar atılmalıdır. Həmçinin həm satıcı, həm də alıcı baxımından alternativ bazarlar tapmaq lazımdır. Yəni biz idxalımızı daha da restrukturizasiya etməliyik. Başqa ölkələrdən almalı, ixracımızı təkcə Rusiya bazarına yönəltməməliyik. Rusiya öz tərəfdaşları ilə həmişə ticarət müharibəsi aparır. Müxtəlif məhdudiyyətlər tətbiq edir. O cümlədən də Azərbaycan məhsullarına ən böyük qadağalar qoyulan zaman yerli sahibkarlarımız ciddi əziyyət çəkir. Rusiya etibarlı tərəfdaş deyil. Ondan uzaq durmaq lazımdır".

**Sücayət Mehti**


**Beynəlxalq İxtiraçılıq və Biznes İnstitutu**

**KURSLAR**

**-MÜHASİBAT** (2 AY)

**-Mobil telefonların təmiri** (3 ay)

**-KOMPYUTER** (1-3 AY)

**-KOSMETOLOGİYA** və **VİZAj** (3 AY)

**-KİŞİ** və **QADIN BƏRBƏRİ** (1-3 ay)

**-Dizayn** (3-6ay)

**-Masaj** (3 ay)

**-Biçmə - Tikiş** (3 ay)

**-Məktəb Psixologiyası** (12 ay)

**Tel: (012) 489-08-84**

**Mob: (070) 241-28-67**

**www.az-baku.com**


# Uşaq və ana ölümü yalnız həkimin suçu deyil

## Rəşad Sultan: "Yaşın az olması və doğuşun evdə baş tutması riskli faktorlardır"

**Bakıda adı açıqlanmayan 15 yaşlı yeniyetmə ölü döl dünyaya gətirdikdən qısa müddət sonra vəfat edib. Hadisə ilə bağlı istintaq işləri aparılır.**

Bu barədə Baş Prokurorluğun Prokurorluqda İstintaqa Nəzarət İdarəsinin rəisi Fazil Həsənəliyev bildirib.

O, qeyd edib ki, hadisə ilə yanaşı, yeniyetmənin xəstəxanada həkim səhlənkarlığı səbəbindən ölməsi faktı da araşdırılır.

Təəssüf ki, uşaq yaşda ana olmaq hələ də aktual mövzulardandır. Çox vaxt erkən nikah nəticəsində belə hallar yaşanır. Bəzən azyaşlılara təcavüz faktları da hamiləliyə səbəb ola bilir. Xüsusilə, Şərq ölkələrində belə vəziyyətlərə daha çox rast gəlinir.

Valideynlərin laqeydliyi, cəmiyyətin səssizliyi, təhsilin və maarifləndirmənin inkişaf etməməsi uşaqların hamiləlik dövrü yaşamasına, hətta onların ölmünə belə gətirib çıxarır. Bunlar azmış kimi, həkim laqeydliyi də onların həyati təhlükəsini artırır.

**Mövzu ilə bağlı "Şərq"ə danışan ginekoloq Rəşad Sultan bildirib ki, hamiləlik dövründə həkim müşahidəsinin olmaması, həm ananın, həm də uşağın ölümü ilə nəticələnə bilər:**

"20 yaşın altındakı hamiləliklərdə patalogiyalar və anormal gedişatlara daha çox rast gəlinir. Bu cür vəziyyəti "riskli hamiləlik" adlandırırıq. Gözlənilən hal desəm, uyğun olmaz. Bu yaşın az olması ilə birbaşa və ya dolayı yolla əlaqəlidir".



*Ginekoloq deyib ki, bu cür vəziyyəti həkimin laqeydliyi kimi dəyərləndirə bilmərik:*

"Həkim səhlənkarlığından danışmaq tezdir. Xəstəxana qeydiyyatının araşdırılmasından sonra yeniyetmənin ölüm səbəbini bilmək olar.

Uşaq evdə dünyaya gəldiyi üçün infeksiyaya yoluxa, qanaxma müşahidə oluna bilər. Qadınların birinci doğuşu zamanı çox vaxt onlarda yırtıq əmələ gəlir. Biz onu tikirik. Bir sözlə, ana hansı vəziyyətdə xəstəxanaya çatdırılıb, bilmirik. Yaşın az olması və doğuşun evdə baş tutması risk faktorlardır".

**Cəmilə Əzim**

## "Nar" Novruz bayramını azad edilmiş ərazilərdə əsgərlərlə qeyd etdi



**"Nar" Novruz bayramı ərəfəsində Azərbaycan Ordusuna mənəvi dəstək məqsədilə işğaldan azad edilmiş ərazilərdə yerləşən hərbi hissələrdən birini ziyarət edib.**

Müdafiə Nazirliyinin dəstəyi ilə mobil operator qalib Azərbaycan Ordusunun əsgərləri ilə görüşüb və Novruz çərşənbəsini onlarla birgə qeyd edib. "Nar" azad edilmiş ərazilərdə yerləşən bir neçə hərbi hissəyə müxtəlif hədiyyələr təqdim edib. Məqsəd Vətən keşiyində duran Ordumuzun əsgərlərinə öz ehtiramı bildirmək və onlara mənəvi dəstək göstərməkdir.

"Nar"ın mətbuat xidmətinin rəhbəri Əziz Axundov sözlərinə görə, "Nar" vətənpərvərlik mövzusuna xüsusi həssas yanaşır: "Novruz bayramını Milli Ordunun əsgərləri ilə birlikdə qeyd etmək artıq "Nar" üçün ənənəyə çevrilib. Çox qürurluyuq ki, bu əziz bayramı işğaldan azad edilmiş ərazilərimizdə qeyd edə bilirik. Bu qüruru bizə bəxş edən Milli Orduya mənəvi dəstək olmağı özümüzə borc bilirik".

Bayram tədbiri tonqallar ətrafında, Həzi Aslanov adına Ordu İdeoloji və Mədəniyyət Mərkəzinin yaradıcı kollektivinin konsert proqramı ilə davam edib.

# Azercell Eksklüziv tezliklə Şuşada!

## Lider mobil operator Azərbaycanın mədəniyyət paytaxtında ofisinin açılışına hazırlaşır

**Azərbaycanın qüruru sayılan Şuşada həyat yenidən qurulur. Hər sahə üzrə aparılan bərpa işləri şəhərin canlanmasına səbəb olur. Şanlı ordumuzun ardınca Şuşaya daxil olan və burada ilk mobil şəbəkəni quran "Azercell Telekom" MMC mədəniyyət paytaxtında öz ilk Eksklüziv ofisini açmağa hazırlaşır.**

Ölkənin lider mobil operatoru Şuşaya səfər edən və orada çalışan abunəçilərə operativ şəkildə xidmət göstərilməsi üçün şəhərin Aslan Qaraşerov küçəsi, 2 ünvanında ofisin açılışı ilə bağlı hazırlıq




işlərini artıq tamamlamaq üzrədir. Eksklüziv tipli mağazaların özəlliyi ofisdə açıq sahələrin mövcudluğu, rahat xidmət göstərilməsi və seçim imkanlarının olmasındadır.

Azercell "Bağlantını asanlaşdırır, həyatı daha dolğun edirik!" strateji məqsədinə uyğun olaraq, işğaldan azad olunmuş ərazilərimizin sürətli inkişafına öz töhfəsini verməyə çalışır və Qarabağda mobil şəbəkə infrastrukturunun qurulmasını intensiv şəkildə davam etdirir. Şirkət bu ərazilərdə 2G/3G/4G radio baza stansiyaları quraşdırmaqla Şuşa, Ağdam, Füzuli, Cəbrayıl, Zəngilan, Qubadlı, Kəlbəcər rayonları, İstisu, Hadrut, Suqovuşan qəsəbələri, Xocavənd və Laçın rayonlarına aid bir çox kənd və digər əraziləri artıq yüksək keyfiyyətli mobil xidmətlərlə təmin edib.

*Xatırladaq ki, məhz Azercell işğaldan azad olunmuş ərazilərdə ilk mobil infrastrukturunu və dördüncü nəsil LTE radio baza stansiyalarını qurub. Bundan əlavə, Qarabağda müştərilərinə canlı xidmət göstərən ilk mobil operator da məhz Azercell olub. Hələ ötən ilin sentyabrında Azercell Mobil Müştəri Xidmətləri Şuşa şəhərinə səfər edərək orada 200-ə yaxın abunəçiyə xidmət göstərib. Azercell komandası Yuxarı Gövhər Ağa Məscidi, Şuşa şəhər İcra Hakimiyyətinin yaxınlığında yerləşən böyük meydanda 50-dən çox müxtəlif müştəri əməliyyatını həyata keçirib. Azercell Qarabağda yeni nəsil şəbəkəsinin əhatə dairəsinin genişləndirilməsi və bu ərazilərə qayıdacaq əhalini yüksək keyfiyyətli kommunikasiya xidmətləri və innovativ həllərlə təmin edilməsi üçün genişmiqyaslı işlərini davam etdirir.*


Təsisçi və baş redaktor: Akif Aşırlı
Baş redaktorun ı müavini: Yusif Nəzərli
Redaktor: Ayyət Əhməd

Reportyorlar qrupu:
Məlahət Rzayeva, Şəymən Bayramova, İsmayıl Qocayev, Kənan Eynuroğlu, Günəş Mərd, Aygün Tahir

Texniki heyət:
Rüfət Dadaşov, İmamcan Əliyev, Nailə Cabarova, İlahə İbrahimova, Fazilə Məmmədova

Qəzet "Şərq"in kompyuter mərkəzində yığılır, səhifələnir və "Azərbaycan" nəşriyyatında çap olunur

Qəzet Mətbuat və İnformasiya Nazirliyində qeydə alınıb.
Lisenziya: 535
www.sherg.az
e-mail: sherq-1996@mail.ru

Ünvan: Mətbuat prospekti, "Azərbaycan" nəşriyyatı.
Telefon: 447-32-41
538-44-50, internet 538-44-15,
İndeks: AZ1073

Hesab nömrəsi: "Kapitalbank"ın ASC 1 saylı Nəsimi filialı 9900003611
SWIFT BIK AII-BAZ2X h/h
AZ17AIIB38070019441100466111
Kod 200112 M/H
AZ37NABZ01350100000000001944
VÖEN 1300414651 İndeks: 0330 Tirajı: 2550 Sifariş: 558



## Tənha "iş kamerası" yaradılıb

**Macarıstan dizaynerlərinin "Workstation" layihəsi COVID-19 pandemiyası səbəbindən məcburi təcrid dövründə yaranıb.**

Azərtac xarici saytlara istinadla xəbər verir ki, dizaynerlər bu dövrdə tənha "iş kamerası"na ehtiyac olduğunu anlayaraq, meşədəki kiçik qazonda və ya həyat evində yerləşdirilə bilən yığma kabin layihəsini təqdim ediblər.

Mikroevin on beş çoxbucaqlı üzünün dizaynı mürəkkəb olsa da, daxili mümkün qədər sadədir.

## "Cins şalvar, kapüşon və saqqal..."

### Makron özünü Zelenskiyə bənzətdi





**Fransa Prezidenti Emmanuel Makronun yeni görüntüləri sosial mediada geniş müzakirələrə səbəb olub.**

Hər zaman kostyumla görməyə adət etdiyimiz Makron, bu dəfə cins şalvar, kapüşon və saqqallı görüntüsü ilə insanları təəccübləndirib.

"Şərq" xarici mediaya istinadən xəbər veriri ki, bu görüntülər Emmanuel Makronun rəsmi fotoqrafı tərəfindən yayımlanıb. Yelisey sarayında çəkilən fotolarda E.Makronun Ukrayna Prezidenti Vladimir Zelenskini yamsıladığı iddia edilir. Bəzi istifadiçilərin fikrinə görə isə Fransa prezidenti sadəcə Zelenskidən ilhamlanıb.

*Qeyd edək ki, Ukrayna Prezidenti V.Zelenski müharibənin ilk günlərindən öz tərzi ilə diqqətləri öz üstünə çəkib. Yaşıl köynək, kapüşon geyinən, "selfie" videoları ilə çıxış edən Ukrayna lideri tez bir zamanda da qlobal məşhurluq qazanıb.*

**Çimnaz Şahlar**





# Putinin qızının mülkünə basqın olub

## "Villanı qaçqın ukraynalılara verin!"

**Rusiya Prezidenti Vladimir Putinin qızı Katerina Tixonovaya məxsus olduğu iddia edilən villaya fransız aktivistlər basqın düzənləyib. Villa Fransanın məşhur kurort şəhəri Biarritzdədir və dəniz sahilində yerləşir. Basqın barədə "Milliyyet.com"da məlumat yer alır.**

Sayt xəbəri "The İnsider" internet səhifəsindən (Rusiya) əldə edib. Özünü "sürgündəki rus bloqçu" kimi təqdim edən yazar Pyer Haffner (Pyer Lapurdi) aktivistlərin basqın düzənlədiyi lüks villadan fotolar paylaşıb və villanı "Putinin qalası" adlandırıb. "Alta Mira" adlanan villada aktivistlər Putinin qızı Katerina Tixonovanın sabiq həyat yoldaşı Kiril Şamalova aid pasportun surətini tapıblar və pasportun şəkli də internet səhifəsində paylaşılıb. Aktivistlər villanın eyvanında Ukrayna bayrağı dalğalandırıb və "villa ukraynalı qaçqınlara verilsin!" şüarı səsləndiriblər. Basqın xəbərini alan Fransa polisi aktivistlərin bir neçəsini həbs edib. Frans-Press (AFP) Agentliyi yazır ki, bloqçu Pyer Haffner də həbs edilənlər arasındadır. Putinə müxalifətdə olan, mühacirətdə yaşayan Vladimir Oseçkin aktivistlərin sərbəst buraxılması çağırışı ilə sosial mediada petisiya təşkil edib. Oseçkin paylaşımında "bu insanlar yanlış bir iş görməyib. Onlar da, biz də rus oliqarxlara məxsus villaların ukraynalı qaçqınların istifadəsinə verilməsini istəyirik. Polisdən də oliqarxları deyil, xalqı qorumasını tələb edirik".

Putin ailəsinin Biarritzdə ən azı 3 mülkünün olduğuna dair xəbərlər var. Fransanın cənub-qərbindəki sahil zolağında son illərdə Putin ailəsi dostları və yaxın ətrafı ilə birlikdə tez-tez görünür. Onlarla birlikdə rus agentlərin də sahil zolağında dolaşdığı bildirilir.

**Məlahət Rzayeva**







## 140 milyon dollar dəyəri var

### Daha bir rusiyalı oliqarxın yaxtası müsadirə olundu

**Rusiya Federasiyasının "Rostex" dövlət korporasiyasının rəhbəri Sergey Çemezovun superlüks yaxtası İspaniyanın Barselona şəhərində müsadirə olunub.**

**Milli.Az Bloomberg-ə istinadən bildirir ki, 85 metr uzunluğu olan yaxtanın dəyəri 140 milyon dollardır.**

**"Rusiyanın əsas oliqarxlarından birinə məxsus yaxtaya bu gün həbs qoyduq", - İspaniyanın baş naziri Pedro Sançes deyib.**

## Moskva sakini 13 milyonu zibil qutusuna atdı



**Moskvalı sahibkar evindəki zibillə birlikdə 13 milyon rublu (təxminən 181 min manat) da məişət tullantıları qutusuna atıb.**

**Oxu.az xəbər verir ki, o, bu vəsaiti krediti ödəmək məqsədilə banka aparmaq üçün ayırıb.**

**Dmitri adlı şəxsin sözlərinə görə, pulun olduğu paket səhvən zibil qabına düşüb. O, zibil qabını binanın önündəki məişət tullantıları qutusuna boşaltdıqdan sonra evinə qayıdıb. Yalnız üç saatdan sonra anlayıb ki, çoxmilyonluq əmanətləri zibil qutusuna atıb.**

**Dmitri geri qayıtsa da, pul paketini orada tapa bilməyib. Hadisədən sonra rusiyalı polisə müraciət edib. Hazırda polis hadisənin başvermə şəraitini araşdırır.**

## Türkiyədə kənd qarın altında qaldı

### İnsanlar evlərindən tunel qazaraq çıxır



**Türkiyənin Muş şəhərinin Yukarıyongalı kəndində qar həyatı iflic edib.**

**Bu barədə "Haber Global" məlumat yayıb.**

**Belə ki, kənddəki evlər, tövlələr, kənd təsərrüfatı texnikaları qar altında qalıb.**

**Bəzi ərazilərdə qarın hündürlüyü iki metrdən artıq olub. Buna görə də vətəndaşların evlərindən çıxmaq üçün tunellər qazmağa məcbur olduğu qeyd edilir.**





# 6 ildir oğlunu görmür

## 7 yaşlı övladı üçün yürüşə çıxdı

**Türkiyəli aktyor Yalçın Çalışqan 2 aydır payi-piyada ölkəsini gəzir, hazırda Diyarbəkirə çatıb. "Şərq" "Milliyet.com"a istinadən xəbər verir ki, aktyorun yürüşünün özəl səbəbi var.**




Yalçın Çalışqan 2008-ci ildə ABŞ vətəndaşı ilə ailə qurub. Bu evlilikdən oğulları dünyaya gəlib. 6 il əvvəl cütlüyün münasibətləri korlanıb və amerikan qadın 1 yaşlı uşağı da özüylə Amerikaya aparıb. O gündən Yalçın Çalışqan oğlunu görmür. Qadın uşağı atasına göstərmir, əlaqə yaratmasına izn vermir. Aktyor da düşdüyü duruma etiraz əlaməti olaraq "etiraz yürüşü"nə çıxmaq qərarına gəlib. Yalçın Çalışqanın yürüşünün səbəbi tək bu deyil. Aktyor eyni zamanda bu yürüşlə SMA xəstəsi (əzələ kiçilməsi xəstəliyi) uşaqlara yardım edilməsinə çalışır. Aktyor yürüşə Sakaryadan başlayıb, Qara dənizi keçərək ordan Artvinə, sonra da sırayla Ərzurum, Bingöl, Diyarbəkirə gəlib. Buradan da Şanlıurfa, Qaziantep, Osmaniyyə, Aralıq dənizi, Egey dənizinə çatıb, Mərmərə ətrafından İstanbulun Məcidiyeköyünə çatmağı və yürüşü tamamlamağı düşünür. Məqsədi düşdüyü durumu qarşılaşdığı insanlara anlatmaq, ictimai dəstək qazanmaqdır. Aktyor "6 ildir oğlumu görmürəm. Övladımı görmək, ona sarılmaq istəyirəm. İnşəllah, bu yürüşüm diqqət çəkər. Həyat yoldaşımla aramızda anlaşılmazlıq yarandı. Övladımızı alıb Amerikaya getdi. "Bu gün gələcəm,



sabah gələcəm... deyə-deyə 6 il keçdi. Başımı aldatdı. Önümü hər tərəfdən kəsib. Oğlumu mənə göstərmir. Amerikaya getməyimə izn vermir. Mən uşaq evində böyümüşəm. Anasızlıq, atasızlıq nədir, bilirəm. Övladımın atasız böyüməsini istəmirəm, buna razı ola bilmərəm. Mən övladımı böyütmək, ona sevgimi vermək istəyirəm. Tək istəyim budur" söyləyən Yalçın Çalışqan getdiyi yerlərdə insanların ona yardım etdiyini, ehtiyaclarını qarşıladıqlarını deyib.

**Məlahət**

## Misirdə qədim yaşayış məskəni aşkarlanıb

### Bu ərazi fironun xüsusi hərbi dəstəsi tərəfindən mühafizə edilib

**Misirin Asuan əyalətinə yaxın Kom Ombo qəsəbəsi yaxınlığında - Nil çayının sahilində eramızdan əvvəl III minilliyə aid qədim yaşayış məskəni aşkarlanıb.**

Azərtac Misirin Qədim Abidlər Şurasına istinadla xəbər verir ki, eramızdan əvvəl 2181-2055-ci illəri əhatə edən fironların hakimiyyətinin birinci aralıq dövründə salınmış bu qədim yaşayış məskəni avstriyalı və misirli arxeoloqların birgə ekspedisiyası tərəfindən aşkarlanıb.



Dənli bitkilərin saxlanması üçün burada mövcud olan 20-yə yaxın kiçik tikili göstərir ki, Kom Ombo qəsəbəsi həmin dövrdə taxıl tədarükü mərkəzi rolunu oynayıb.

Misirin Asuan və Nubiya Qədim Abidələri Şurasının sədri Əbdel Moneim Sayid jurnalistlərə bildirib ki, bu ərazi fironun xüsusi hərbi dəstəsi tərəfindən mühafizə edilib və yaxınlıqda Ptolemey dövrünə aid məbəd də tikilib. Gələcəkdə turistlərin ziyarət məkanına çevriləcək Kom Ombo yaşayış məskəni Avstriya Arxeologiya İnstitutu ilə əməkdaşlıq sayəsində üzə çıxarılıb.

## Xəstəxanaya çatdırılıb

### Aylardır duru yemək yeyən kişinin dilində tüklər çıxdı

**50 yaşlı kişi xəstəxanaya qəribə simptomlarla çatdırılıb. Onun dili qaralıb, üzərində tüklər çıxıb.**



Bakupost.az xəbər verir ki, nadir kliniki tibbi hadisə Hindistanda baş verib.

Həkimlər pasiyentə lingua villosa nigra - qara tüklü dil diaqnozu qoyublar.

Məlum olub ki, 3 ay əvvəl insult keçirən kişi iflic olduğu üçün çeynəyə bilmədiyindən yalnız sulu, duru qidalar qəbul edib. Nəticədə xəstənin dilinin səthinin təbii təmizlənməsi baş verməyib. Qaralan dilin üzərində olan ucluqların üzərində dərinin ölü hüceyrələrindən tükə bənzər uzun saplar əmələ gəlib. Orda bakteriyalar kök salıb.

Kerala ştatının Koçi şəhər xəstəxanasının həkimləri xəstənin dilinin təmizlənməsi prosedurlarını aparıb, ağız gigiyenası edərək, qidalanmasını dəyişiblər.

*Həkimlər qara dilin antibiotiklərdən, siqaretdən, kofe və alkoqoldan, bəzi xəstəliklərdən ola biləcəyini açıqlayıb.*